QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 144 (6344) 14 avqust 2021-ci il **Qiyməti 40 qəpik** "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Zəfərimizin müəllifi Qalib Lider Qarabağın dirçəlişini də təmin edəcək!

*Prezident İlham Əliyev cənablarının "İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında" imzaladığı Fərman reallığın göstəricisidir*



## Misirin nüfuzlu qəzetləri Ermənistanın hərbi təxribatlarından yazıb

Misirin nüfuzlu "Əl Əhram" və "Əl Masr Əl Yom" qəzetlərində son günlər Ermənistanın törətdiyi hərbi təxribatlardan bəhs edən materiallar dərc olunub...



Bax 6

## Azərbaycanın Olimpiya Oyunlarında uğurları

Dövlət başçısının Sərəncamları ilə XXXII Yay Olimpiya Oyunlarında uğurlara imza atan idmançılar və onların məşqçiləri fəxri adlara və mükafatlara layiq görülüblər.



## ŞOK: Bakıda azyaşlı uşaqlara işgəncə verilib

## Vaksinasiya prosesində fəal iştirak edək, yenidən qapanmalara yol açmayaq!

Bax 7



## İctimai nəqliyyatda xanımlara və yaşlılara yer verilməlidir?





"Mental dəyərlərimizə görə, qadınlara, o cümlədən də yaşlı xanımlara, hamilə qadınlara və uşaqlara hər...

Bax 9

## Koronavirus cəbhəsində ümummili mübarizə: necə gedir, necə olmalıdır?



Bax 15

## "Könlü sınıq" Suriya erməniləri



Bax 11

*Bu gün ermənilər üçün başqa bir dərd də gözləmədikləri yerdən çıxıb. "Müstəqil dövlətin müstəqillik günü"nün 30-cu ildönümü yaxınlaşır, amma hələ ki, bununla bağlı...*

## 16 avqust xalq şairi Bəxtiyar Vahabzadənin doğum günüdür




Bax 8

## BMT Ermənistanla bağlı bəyanat verdi



## Gələcəyimiz olan uşaqlara dövlət qayğısı



Bax 12

## "Sülhməramlılar Rusiya prezidentinin imzasına hörmət etməlidirlər"



Bax 13

## Messi ilə Ronaldo eyni komandada!



Bax 16

# Zəfərimizin müəllifi Qalib Lider Qarabağın dirçəlişini də təmin edəcək!

*Prezident İlham Əliyev cənablarının "İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında" imzaladığı Fərman reallığın göstəricisidir*





Prezident İlham Əliyev 2021-ci id avqustun 12-də ”İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında” imzaladığı Fərmana əsasən Nazirlər Kabinetinə tapşırılır ki, iki ay müddətində ”Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanının 7.4-cü bəndinə uyğun olaraq aparılmış inventarlaşdırmanın nəticələri əsasında işğaldan azad olunmuş ərazilərdə tikililərin mövcud vəziyyəti və həmin tikililərdə baş verən dəyişikliklər barədə məlumatların uçotunun aparılması, habelə tikililərin sökülməsi sahəsində dövlət orqanlarının (qurumlarının) çevik əlaqələndirilmiş fəaliyyətinin təmin edilməsi məqsədilə işğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestrini (bundan sonra - reyestr) yaratsın; Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifləri əsasında ”İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında Əsasnamə”ni təsdiq etsin; işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin daha səmərəli təşkili məqsədilə reyestrə daxil olan tikililərin müvafiq ərazidə tikinti niyyətinin həyata keçirilməsi zərurəti ilə bağlı sökülməsi qadağan edilən, sökülməsinə rəy tələb olunan və sökülməsi mümkün olan kateqoriyalar üzrə bölgüsünü təsdiq etsin; bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.



Müəyyən edilir ki, reyestrin tərtibini və aparılmasını Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirir; bu Fərmanın 1.3-cü bəndinə əsasən sökülməsi mümkün olan tikililərin sökülməsinə bu barədə məlumat təqdim edildikdən, digər tikililərə münasibətdə isə sökülmənin məqsəduyğunluğuna dair aidiyyəti üzrə Azərbaycan Respublikasının Prezidentinin xüsusi nümayəndəsinin, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin bu Fərmanın 1.2-ci bəndində nəzərdə tutulan ”İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında Əsasnamə” ilə müəyyən edilən qaydada rəy verilməsindən sonra həyata keçirilir.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə tapşırılır ki, fərmandan irəli gələn tələblərə riayət edilməsinə nəzarəti həyata keçirsin; bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

## Azad olunmuş ərazilərdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanacaq

Bu gün Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad olunmasının sevincini və qürurunu hər gün, hər an yaşayır. Ali Baş Komandan İlham Əliyevin ”Dəmir yumruğu” cəmi 44 gün müddətində Ermənistana elə bir zərbə vurdu ki, tarix boyu işğalçılar bunu unuda bilməyəcəklər. Bunun nəticəsində işğalçı Ermənistan məğlubiyyətini etiraf edərək kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı. Artıq bu gün qarşıda dayanan əsas vəzifəmiz azad olunmuş ərazilərimizdə quruculuq-bərpa işlərinin həyata keçirilməsidir. Azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməlləri atılır. Məqsəd yalnız ölkə səviyyəsində deyil, həm də uğurlu inteqrasiyaya nail olmaqla, regional və beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir. 30 ilə yaxın erməni vandalizminə məruz qalan torpaqlarımızda tezliklə canlanmanın və məskunlaşmanın şahidi olacağıq. Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə hər səfərləri zamanı vacib layihələrə start verilməsi və əhəmiyyətli layihələrin reallaşması işğaldan azad olunmuş ərazilərdə artıq böyük inkişafın təməllərinin qoyulması ilə yanaşı, həm də uğurlu inteqrasiyaya nail olmaqla, regional və beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir.





Ardı Səh. 3

# Zəfərimizin müəllifi Qalib Lider Qarabağın dirçəlişini də təmin edəcək!

*Prezident İlham Əliyev cənablarının "İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında" imzaladığı Fərman reallığın göstəricisidir*









Əvvəli-Səh-2

## Böyük qayıdış başlayıb

Qarabağın dirçəlişi və işğaldan azad olunmuş ərazilərimizə Böyük Qayıdış isə çoxdan başlayıb. Belə ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasının təməli hələ bir neçə il əvvəl Cəbrayılın Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə qoyulub. Hələ o zaman bu kiçik kəndin timsalında xalqımız gördü ki, Prezident İlham Əliyev tezliklə bütün torpaqlarımızı işğaldan azad edəcək və həm də onları yenidən dirçəldəcək. Hər birimiz hələ o zaman İlham Əliyevin qələbə və quruculuq əzminin, qətiyyətinin şahidi olmuşduq. İndi isə bütün azad olunmuş şəhər və rayonlar dirçəliş yolundadır. Hələ müharibənin davam etdiyi günlərdən İlham Əliyevin göstəriş və tapşırıqları ilə azad olunmuş ərazilərdə kommunikasiyaların bərpasına başlanılıb. 2020-ci ilin yekunlarına həsr olunmuş və videoformatda keçirilən müşavirədə yekun nitqini bu mövzu ilə tamamlayan Prezident İlham Əliyev Qarabağ bölgəsində cənnət yaradılacağını bəyan etdi: "Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam".

İşğaldan azad olunmuş ərazilərdə şəhər və kəndlərin bərpası və yenidən qurulması, elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal, digər zəruri infrastrukturların, mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və digər məqsədlərlə 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait ayrılıb.

## "Bu boyda miqyaslı işi cəmi 8 ay ərzində görmək doğrudan da, mən hesab edirəm ki, böyük qəhrəmanlıqdır"

Bəli, 44 günlük qələbəmizdən 8 aya yaxın vaxt keçməsinə baxmayaraq az müddətdə çox işlər görülüb. Prezident İlham Əliyev iyulun 22-də Azərbaycanın qərb bölgəsinə - Daşkəsən, Naftalan və Goranboya səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsində işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma işləri və bu istiqamətdə yeniliklər barədə məlumat verərək bildirib ki, biz müntəzəm olaraq Azərbaycan ictimaiyyətini gedən işlərlə bağlı məlumatlandırırıq: "Belə ki, hazırda işğaldan azad olunmuş ərazilərdə kommunikasiyaların bərpası istiqamətində çoxsaylı layihələr icra olunur. Yollar çəkilir, enerji ilə təminat məsələləri yoluna qoyulur. Görülən bütün işlər xalq tərəfindən bəyənilir, dəstəklənir. Əlbəttə, o bölgələrdən olan insanlar - keçmiş köçkünlər bu layihələrin icrasında iştirak edirlər, onların rəyi mütləq nəzərə alınır. Müharibədən cəmi 8 ay keçib, amma görün nə qədər böyük işlər görülür".Prezident İlham Əliyev, həmçinin infrastruktur layihələri ilə də bağlı məlumat verərək bildirib ki, üç aeroport tikilir: "Bu, təkcə əsas infrastruktur layihələridir. Şəhərsalma ilə bağlı bizim işçilərimiz böyük işlər görür, çox fəal işləyirlər. Ağdamın baş planı təsdiqləndi. Füzulinin, Cəbrayılın baş planlarının ilkin versiyası mənə təqdim edildi. İndi müfəssəl plan üzərində iş aparılır. Yaxın aylarda Füzuli və Cəbrayıl şəhərlərinin baş planı ictimaiyyətə təqdim ediləcək. Zəngilan şəhərinin baş planının hazırlanması prosesinə artıq başlanmışdır. Bir neçə xarici şirkət, tanınmış dünya səviyyəli şirkət öz təklifini verdi. İndi seçim aparılır. Eyni zamanda, əlbəttə ki, Qubadlı da, Laçın və Kəlbəcər də - o şəhərlər də yenidən qurulacaq. Yəni, bu boyda miqyaslı işi cəmi 8 ay ərzində görmək doğrudan da, mən hesab edirəm ki, böyük qəhrəmanlıqdır".

## "Zəfər yoluna, demək olar ki, sentyabr ayında asfalt döşənməsi də başa çatacaq"

Dövlət başçısı, həmçinin işğaldan azad olunmuş ərazilərimizdə, ümumiyyətlə ölkəmizdə yol infrastrukturunun vacib olduğunu deyərək bildirib ki, enerji sahəsindən başqa ikinci vacib sahə yol infrastrukturudur: "Burada da 8 ay ərzində görün nə qədər böyük işlər görülüb. Bərdə-Ağdam avtomobil yolu tikilir, Zəfər yoluna, demək olar ki, sentyabr ayında asfalt döşənməsi də başa çatacaq. Zəfər yolu olmayıb heç vaxt. Dərədən, dağlardan, meşələrdən keçən o yol gərək açılaydı, torpaq yol çəkiləydi, ondan sonra asfalt yol. Cəmi 8-9 ayda biz bunu edirik. Paralel olaraq Füzuli-Şuşa magistral yolu, Horadiz-Ağbənd yolu çəkilir, 4-6 zolaqlı yoldur. Zəngilan-Qubadlı-Laçın yolu çəkilir. Bu da çox önəmli yoldur. Füzuli-Hadrut, Füzuli-Cəbrayıl yolları - bütün yollar üzrə qızğın iş gedir. Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı üzrə yol çəkilir. Bu yol heç vaxt olmayıb, cığır olub. Qış aylarında heç vaxt ondan istifadə olunmayıb. Biz indi yol çəkirik, tunellər çəkirik ki, ilin bütün mövsümlərində o yoldan istifadə edə bilək. Eyni zamanda, biz Göygölü də turizm mərkəzi kimi Kəlbəcərin gələcək mənzərəli turist mərkəzləri ilə bağlamış oluruq. Digər yollar, Kəlbəcər, Laçın rayonlarında hərbi əhəmiyyətli yollar çəkilir. Bu yolların ümumi uzunluğu 700 kilometrə qədərdir. Çünki orada yol olmayıb, sərhədə gedən istiqamətdə yol olmayıb. Orada qar may ayında əriyib. İndi qış gələnə qədər - qış da oktyabr ayında gələcək, - oktyabr ayına qədər biz orada nə qədər yol çəkməliyik və bunu edirik. Bu, böyükmiqyaslı işdir, mətbuatda çox da işıqlandırılmır. Təbiidir, amma strateji nöqteyi-nəzərdən və sərhəddə öz mövqelərimizi möhkəmləndirmək nöqteyi-nəzərindən bu yolların çox böyük əhəmiyyəti var".

## "Dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik"

"Biz bu ilin sonuna qədər azad edilmiş torpaqlarda - həm Qarabağda, həm Şərqi Zəngəzurda bütün elektrik təsərrüfatını quracağıq: yeni xətlər, ötürücü xətlər, transformatorlar, yarımstansiyalar, elektrik stansiyaları. Ermənilər tərəfindən dağıdılmış 12 su elektrik stansiyasını ki, Kəlbəcər və Laçın rayonlarında onlara iki həftə möhlət veréndən sonra onları yandırıb dağıtmışdılar. Beləliklə, bu, əsas məsələdir. Çünki bu olmasa, heç bir inkişafdan söhbət gedə bilməz". İlin sonuna qədər planlaşdırılır ki, tam yekunlaşdıraq. Amma, əlbəttə ki, bundan sonra dediyim kimi, yaşıl enerji layihəsi icra ediləcək. Artıq bir xarici şirkət tərəfindən maraq göstərilib. 200 meqavatlıq günəş elektrik stansiyasının xarici şirkətin vəsaiti hesabına tikintisi ilə bağlı razılığa gəldik. Bu, çox gözəl, önəmli hadisədir. Eyni zamanda, başqa şirkətlər üçün də bu, bir siqnaldır. Mən bilirəm ki, indi dünyanın müxtəlif enerji şirkətləri öz prioriteti üçün bərpaolunan enerjini təsbit ediblər. Biz onları da dəvət edirik, gəlsinlər, investisiya qoysunlar. Bizim şaxələndirilmiş enerji şəbəkəmiz var, bizim bütün qonşu ölkələrlə - Türkiyə, Rusiya, İran, Gürcüstanla yüksək gərginlikli enerji xətlərimiz var. Biz istənilən yerə enerjini ötürə bilərik. Məsələn, biz İrana indi ixrac edirik, Rusiyaya həm ixrac edirik, həm idxal edirik, amma daha çox ixrac edirik. Eyni zamanda, Gürcüstana, Türkiyəyə ixrac edirik. Daxili tələbat artacaq. Ona görə bu sahə xüsusi önəm daşıyır".

Dövlət başçısı onu da vurğulayıb ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik: "Bütün xərcləri öz hesabımıza edirik, heç bir yerdən bir manat yardım almamışıq. Bəli, xarici şirkətləri biz dəvət etmişik, amma podratçı kimi. Bütün vəsait dövlət büdcəsindən gedir. Dövlət büdcəsi üçün bu, böyük yükdür. Təbiidir, amma biz bunu edirik, edəcəyik. Dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik". Bu gün Cənab Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində verilən sərəncam və fərmanlar, həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevirilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib.

Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz el-obalarına geri dönəcəklər. Tezliklə işğaldan azad edilən ərazilərdə reallaşacaq sosial layihələr də həm Qarabağın dirçəlişinə təkan verəcək, həm də "Böyük Qayıdış"ı sürətləndirəcək. Dövlət başçımızın dediyi kimi: "Biz işğaldan azad edilmiş yerlərdə şəhərlər quracağıq, həyatı qaytaracağıq, bütün dağılmış yerləri bərpa edəcəyik". Çünki Qarabağ Azərbaycanındır, Qarabağ Azərbaycandır!

**RƏFİQƏ KAMALQIZI**

# Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının X hesabat konfransı keçirilib


















Avqustun 13-də Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Əvvəlcə Azərbaycan dövlətinin memarı, xalqımızın xilaskarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov hesabat məruzəsi ilə çıxış edib. A.Ağasəfov bildirib ki, bu gün Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən nüfuzlu partiyasıdır. YAP qarşısına qoyduğu vəzifələri hər zaman layiqincə və uğurla yerinə yetirir.

A.Ağasəfov qeyd edib ki, hazırda YAP Qəbələ rayon təşkilatının 76 ərazi ilk partiya təşkilatı öz sıralarında 6360 üzvü birləşdirir. Partiya üzvlərinin 1924 nəfəri gənclər, 2674 nəfəri isə qadınlardır.

Dövlətimizin uğurlu siyasəti nəticəsində Qəbələ rayonunun inkişafından geniş bəhs edən A. Ağasəfov YAP Qəbələ rayon təşkilatının hər bir üzvünün bu prosesdə fəal iştirakından məmnunluq hissi keçirdiyini bildirib. O, əminliklə bildirib ki, təşkilat üzvləri bundan sonra da rayonun ictimai-siyasi həyatında, tərəqqisində fəal iştirak edəcəkdir.

Sonra YAP Qəbələ rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədr müavini Natiq Ağaşirinovun hesabat məruzəsi dinlənilib.

Müzakirələr zamanı çıxış edən YAP Qəbələ rayon təşkilatının İdarə Heyətinin üzvü, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Milli Məclisin deputatı Aqiyə Naxçıvanlı, rayon təşkilatının Qadınlar Şurasının sədri Arifə Bayramova, təşkilatın Gənclər Birliyinin sədri Anar Şirinov, rayon təşkilatının ərazi ilk təşkilat sədri İfadə Məsimova hesabat dövründə görülən işlərdən bəhs ediblər.

Konfransda çıxış edən Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, ümumxalq partiyasına çevrilən YAP 29 ildə qazandığı uğurlar, zəngin təcrübə, inam və etimad əsasında irəliyə doğru inamla irəliləyir. Partiyanın 760 mindən artıq üzvünün hər biri ulu öndər Heydər Əliyevin ideyalarının və cənab Prezident İlham Əliyevin uğurlu siyasətinin təbliğatçılarıdırlar.

Hazırkı dövrün ən böyük hadisəsinin tarixi Zəfərimiz olduğunu önə çəkən Ə.Tağıyev vurğulayıb ki, yeni dövrün reallıqları əsasında keçirilən YAP-ın VII Qurultayı mühüm qərarların qəbulu ilə əlamətdar oldu. Yeni idarəçilik mexanizminin yaradılması, yeni Nizamnamənin qəbulu daha çevik partiya fəaliyyətinin həyata keçirilməsinə stimul verir. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev proqram xarakterli nitqində qarşıya yeni vəzifələr qoyub və bu vəzifələrin yüksək səviyyədə həyata keçirilməsi bizim fəaliyyətimizin əsasını təşkil edir.

Yeni hədəflərə nail olmaqda partiyanın hər bir rayon təşkilatının rolunu önə çəkən Ə.Tağıyev YAP Qəbələ rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Qəbələ rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# BMT ekspertləri: Ermənistan milli azlıqların hüquq müdafiəçisinə qarşı cinayət ittihamlarını ləğv etməlidir


UNITED NATIONS HUMAN RIGHTS

**Armenia must drop "intimidating" criminal charges against minority rights activist – UN experts**

GENEVA (10 AUGUST 2021) – Armenia must stop intimidating human rights defender Sashik Sultanyan, founder of the Yezidi Center for Human Rights, who faces criminal charges for speaking out in support of minority rights, UN human rights experts* said today.

The experts called on Armenia to drop charges against Mr. Sultanyan, who is accused of criminal incitement of hatred and violence in connection with an online interview he gave last year.

"It is not incitement to hatred or violence to raise human rights concerns about the treatment of minorities," the experts said. "On the contrary, it is protected speech under the right to freedom of expression.

"Nor are minorities such as the Yezidis a threat to national security," they added. "We call on Armenia to drop these criminal charges, which appear designed simply to intimidate Mr. Sultanyan and others who stand up for minority rights. They may also have a chilling effect on other human rights defenders, especially young people."

The experts said the human rights defender is being targeted for raising minority issues in Armenia and advocating for the human rights of Yezidis, an ethnic group in the country whose ancestors settled there in the 19th and early 20th century after fleeing religious persecution in the Ottoman Empire.

Mr. Sultanyan is a prominent youth activist and a former minority fellow at the Office of

Ermənistan milli azlıqların hüquqlarını müdafiə etdiyinə görə cinayət məsuliyyətinə cəlb olunan "İnsan haqları üzrə Yezidi Mərkəzinin" təsisçisi Saşik Sultanyanı təhdid etməyi dayandırmalıdır. Bunu BMT-nin insan hüquqları üzrə ekspertləri bildiriblər.

Ekspertlər Ermənistanı Saşik Sultanyanın ötən il verdiyi onlayn müsahibə ilə əlaqədar nifrət və zorakılığa təhrikdə ittiham etməyi dayandırmağa çağırıblar. Onlar milli azlıqlara qarşı insan haqları ilə əlaqədar narahatlıqların nifrət və ya zorakılığa təhrik deyil, əksinə, ifadə azadlığı olduğunu bildiriblər. "Milli azlıqlar olan yezidilər milli təhlükəsizliyə təhdid yaratmırlar", - deyə onlar əlavə ediblər.

BMT insan haqları mütəxəssisləri hüquq müdafiəçisinin Ermənistanda milli azlıqların problemlərini qaldırmaq və Ermənistanda məskunlaşan etnik qrup yezidilərin insan haqlarını müdafiə etdiyi üçün hədəf alındığını söyləyirlər.

Saşik Sultanyan gənc fəaldır və BMT-nin İnsan Haqları üzrə Ali Komissarlığında insan haqları üzrə təcrübə proqramının iştirakçısı olub. O, ötən il verdiyi onlayn müsahibə ilə əlaqədar nifrət və zorakılığa təhrikdə ittiham olunur. O, Yezidinews.am saytına Ermənistandakı yezidilərin problemləri ilə bağlı müsahibə verib. Ötən ilin noyabrında Ermənistan Milli Təhlükəsizlik Xidməti tərəfindən onun barəsində cinayət işinə başlanılıb, ancaq bu barədə ona bu ilin may ayında məlumat verilib. Bununla bağlı cinayət işi məhkəməyə avqustun 4-də daxil olub və Saşik Sultanyanın günahı sübuta yetirilərsə onu üç ildən altı ilə qədər həbs cəzası gözləyir. BMT-nin adıçəkilən ekspertləri bu mövzu ilə bağlı Ermənistan hökuməti ilə dialoq aparırlar.

Qeyd edək ki, bu açıqlama BMT-nin Milli azlıqların məsələləri üzrə xüsusi məruzəçi Fernand de Varennes, hüquq müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçi Meri Loulor və ifadə azadlığı hüququnun təşviqi və müdafiəsi üzrə xüsusi məruzəçi İren Xan tərəfindən verilib.

# Azərbaycanın Olimpiya Oyunlarında uğurları

***Dövlət başçısının Sərəncamları ilə XXXII Yay Olimpiya Oyunlarında uğurlara imza atan idmançılar və onların məşqçiləri fəxri adlara və mükafatlara layiq görülüblər***



Azərbaycanda bütün sahələrə olduğu kimi, idmanın inkişafına da ayrılan diqqətin nəticəsidir ki, ölkəmizin idmançıları beynəlxalq idman yarışlarında, olimpiyadalarda dövlət bayrağını yüksəkliklərdə




dalğalandırırlar. Belə ki, son illərdə idmançılarımız bir çox olimpiya oyunlarında yüksək nəticələr əldə etmişdilər. Olimpiya oyunlarına nəzər salsaq görərik ki, Azərbaycan bu yarışlarda böyük uğurlar qazanıb. Xatırlatmaq yerinə düşər ki, 1996-cı ildə Atlanta Olimpiya Oyunlarında 23 idmançı ilə təmsil olunan Azərbaycan komandası 197 ölkə arasında 61-ci yeri tutub. Sidneydə XXVII Yay Olimpiya Oyunlarında Azərbaycan müstəqil dövlət kimi ikinci dəfə olimpiadada iştirak edərək iki qızıl və bir bürünc medalla iştirakçı ölkələr arasında 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri qazanıb. Afinada XXVIII Yay Olimpiya Oyunlarında Azərbaycan milli komandası bu möhtəşəm yarışdan vətənə 1 qızıl, 4 bürünc medalla qayıtıb. Bu siyahını artırmaq mümkündür. XXIX Yay Olimpiya Oyunları, XXX Yay Olimpiya Oyunları və s. Hər birində Azərbaycan idmançılarının böyük qələbəsi, tarixi nailiyyəti var.

Bu günlərdə Yaponiyanın Tokio şəhərində keçirilən XXXII Yay Olimpiya Oyunlarında idmançılarımız növbəti uğurlara imza atıblar. Azərbaycan milli komandası "Tokio-2020"də 44 idmançı ilə təmsil olunub. Onu da bildirək ki, Azərbaycan yeddinci dəfədir ki, Yay Olimpiya Oyunlarında iştirak edir. Uğurlar qazanan idmançılarımızın mükafatlandırılması məqsədi ilə dövlət başçısı bir neçə sərəncam imzalayıb. Azərbaycan Prezidentinin Yaponiyanın Tokio şəhərində keçirilən XXXII Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında Sərəncamına əsasən, idmançıları və onların məşqçilərini həvəsləndirmək məqsədilə ikinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat, üçüncü yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat ayrılıb.

Azərbaycan Milli Olimpiya komandası üzvlərinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə XXXII Tokio Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan idmançılarının məşqçiləri "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif ediliblər. Azərbaycan Milli Olimpiya komandası üzvlərinin təltif edilməsi haqqında dövlət başçısının digər Sərəncamı ilə XXXII Tokio Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan idmançıları və onların məşqçilərini 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 3-cü dərəcəli "Əmək" ordeni və "Tərəqqi" medalı ilə təltif ediliblər.

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi Prezidentinin "Yaponiyanın Tokio şəhərində keçirilən XXXII Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında" Sərəncamına əsasən isə ikinci yeri tutan hər bir idmançıya 100 min manat, onun məşqçisinə 50 min manat, üçüncü yeri tutan hər bir idmançıya 50 min manat, onun məşqçisinə 25 min manat pul ayrılıb. Bütün bunlar hər bir idmançını, məşqçini daha səylə, məsuliyyətlə çalışmağa həvəsləndirir.

Azərbaycan idmançıları hər bir yarışdan qələbə sorağı ilə vətənə dönürlər. Eləcə də, ölkəmizdə keçirilən yarışlarda Azərbaycan bayrağını yüksəkliklərə qaldırırlar, dövlət himni səsləndirilir. Azərbaycanda çoxsaylı idman yarışları, o cümlədən, Avropa və dünya çempionatları, Olimpiya və qeyri-olimpiya idman növləri üzrə çempionatlar keçirilir. Paytaxtımızda təşkil edilən "Bakı-2015" ilk Avropa Oyunlarında da Azərbaycan bu oyunların standartlarını müəyyənləşdirməklə yanaşı, atletlərimiz 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medal qazanaraq 2-ci yeri tutdular. IV İslam Həmrəyliyi Oyunlarında isə idmançılarımız elə bir möhtəşəm uğura imza atdılar ki, "Bakı-2017"nin ən güclüləri oldular. Bütün bunlar, ölkəmizdə idmana ayrılan diqqət və yaradılan şəraitdir. Respublikamızda idmanın qısa müddətdə yüksək inkişaf səviyyəsinə çatması, idmançılarımızın beynəlxalq arenada böyük uğurlar qazanması əlbəttə ki, Cənab İlham Əliyevin həm dövlət başçısı, həm də Milli Olimpiya Komitəsinin rəhbəri kimi bu sahəyə göstərdiyi diqqətin təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***






# YAP Oğuz rayon təşkilatının XI hesabat konfransı keçirilib





Avqustun 13-də Yeni Azərbaycan Partiyası Oğuz rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib. Əvvəlcə Azərbaycanın xilaskarı və qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, müstəqil Azərbaycan dövləti ilə eyni zamanda təşəkkül tapan Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi bütün gücünü və bacarığını xalqa xidmətə yönəldərək mühüm uğurlara imza atıb. Ümummilli Lider Heydər Əliyevin zəngin təcrübəsi və gərgin fəaliyyəti Azərbaycanın bugünkü və gələcək taleyini müəyyən edib. Prezident İlham Əliyevin rəhbərliyi altında YAP milli maraqların ifadəçisi kimi, Azərbaycanın hərtərəfli inkişafına öz töhfəsini verir.







S.Məhərrəmov qeyd edib ki, YAP Oğuz rayon təşkilatı öz sıralarında 4866 nəfər partiya üzvünü 68 ərazi ilk partiya təşkilatında birləşdirir. Onlardan 2042 nəfəri qadın, 1671 nəfərini gənclər təşkil edir. Hesabat dövründə 362 nəfərin partiya sıralarına qəbul edilib.



Sonra YAP Oğuz rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Allahverdi Allahverdiyevin hesabat məruzəsi dinlənilib.

Müzakirələr zamanı çıxış edən Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov, Milli Məclisin deputatı Aqiyə Naxçıvanlı, YAP Oğuz rayon təşkilatı Qadınlar Şurasının sədr müavini Mehriban Abbasova, rayon təşkilatı Gənclər Birliyinin sədri Elşən Alcanov, Rayon Ağsaqqallar şurasının üzvü Emin Əzimli hesabat dövrü ərzində görülən işlərdən bəhs ediblər.

Konfransda çıxış edən Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqillik tarixində gördüyü işlər, Azərbaycanın ən yüksək zirvələri fəth etməsi üçün yaratdığı möhkəm təməl, həmçinin bu təməl üzərində ölkəmizin son 18 ildə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qazandığı uğurlar və tarixi Zəfərimiz bundan sonra da respublikamızın dayanıqlı inkişafını təmin edəcəkdir.



Ə.Tağıyev vurğulayıb ki, sözlə əməl birliyini, monolitliyini qoruyan Yeni Azərbaycan Partiyasının 29 ildə əldə etdiyi uğurların miqyası böyükdür. Partiyanın VII qurultayında qəbul olunan qərarlar qarşıdakı dövrdə görüləcək işlərin aydın mənzərəsini yaradır. YAP Oğuz rayon təşkilatının fəaliyyətini müsbət qiymətləndirən Ə.Tağıyev təşkilata gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Oğuz rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

facebook
QARABAĞ AZƏRBAYCANDIR!
Ses Media Holding
SƏS
14 avqust 2021-ci il

# Azərbaycan xalqının böyük dostu - Oljas Süleymenov





Azərbaycan müstəqillik əldə etdikdən sonra möhkəm təməllər üzərində qurulan dövlətlərarası münasibətlər bu gün siyasi iradə ilə ən yüksək səviyyədə davam etdirilir. Qarşılıqlı etimada əsaslanan ikitərəfli münasibətlər davamlı xarakter alıb. Əlbəttə ki, Azərbaycanla strateji tərəfdaş ölkə olan Qazaxıstanı tarixi dostluq-qardaşlıq telləri bağlayır. Eyni soykök, eyni mədəni və mənəvi amillər mövcud əlaqələrin dinamik inkişafına töhfəsini verir. Azərbaycan və qazax xalqları türkdilli xalqlar olmaqla etnik, dini və mədəni dəyərlər baxımından bir-birinə çox yaxındırlar və hər iki xalq imperiya dövründə vahid mərkəzdən idarə olunub.

Hələ sovet dövründə yaşadığımız illərdə Ulu Öndər Heydər Əliyevlə Nursultan Nazarbayevin iki dost, qardaş xalqın rəhbərləri kimi sıx əməkdaşlığı olub. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu dostluq, qardaşlıq ənənəsi daha da inkişaf etdirilib. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev dövlətlərarası diplomatik münasibətlərin qurulmasından keçən dövr ərzində bir çox nailiyyətlərə imza atmışdır. Bildiyimiz kimi, Azərbaycan və Qazaxıstan Çindən Avropaya qədər uzanan beynəlxalq nəqliyyat dəhlizinin üzərində yerləşir. Hər iki ölkənin marağı bu tranzit xəttin imkanlarından maksimal dərəcədə faydalanmaqdır. Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Yeni Bakı Beynəlxalq Dəniz Limanı, Qazaxıstanın qərb və şərq sərhədlərini birləşdirən dəmir yolu xətləri və Kurık dəniz limanı ölkələrimizin tranzit potensialının daha da artırılmasına xidmət edir. Ölkələr arasında mövcud olan bu regional əməkdaşlıq modeli böyük əhəmiyyət kəsb edir.




Azərbaycanla Qazaxıstan arasında mədəni, humanitar əlaqələrə də vurğulamaq yerinə düşər. Azərbaycan və qazax xalqları tarixi, mədəni və ənənələr baxımından bir-birinə bağlı olduğundan mədəni əlaqələrin genişləndirilməsi üçün geniş əlaqələr mövcuddur. Hər iki xalq müstəqillik əldə etdikdən sonra bu əlaqələr daha da intensiv xarakter alıb. Belə ki, dövlətlərarası mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli əməkdaşlıq Proqramı imzalanıb. Qazaxıstanın Cambul vilayətində ”Nəsimi” Azərbaycan Mədəniyyət Mərkəzi yaradılıb. Sumqayıt və Aktau şəhərləri arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə imzalanıb. Bu və ya digər əlaqələr dövlətlər arasında mədəni-humanitar əməkdaşlığın genişləndirilməsində böyük rol oynayır.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin görkəmli qazax şairi və ictimai xadim Oljas Süleymenovu qəbul etməsi mövcud dostluq və mədəni münasibətlərin göstəricisidir. Cənab Prezident bildirib ki, onu Azərbaycanda xalqımızın böyük dostu kimi tanıyır, həm qardaş Qazaxıstan mədəniyyətinin görkəmli nümayəndəsi, həm də bütün məsələlər üzrə öz prinsipial mövqeyini hər zaman söyləmiş ictimai xadim kimi sevirlər. Görkəmli qazax şairinin Azərbaycanı həmişə dəstəklədiyini vurğulayan dövlətimizin başçısı bildirib ki, Oljas Süleymenov Ermənistanla Azərbaycan arasında münaqişənin həlli işində ölkəmizi həmişə dəstəkləyib. Hər zaman Azərbaycana dost münasibətdə olan şair xalqımızın ictimai-siyasi proseslərini diqqətlə izləyib. Azərbaycan xalqının dostu kimi tanınır. Azərbaycanın ən ağır anlarında da hər zaman xalqımızın yanında olub. Görüşdə dövlət başçısı Ulu Öndər Heydər Əliyevlə Oljas Süleymenovun dostluq münasibətlərini və görüşlərini xatırladıb və Cənab İlham Əliyev bu görüşlərin bir neçəsində özünün də iştirak etdiyini bildirib. Onu da qeyd edib ki, Ümummilli Lider Oljas Süleymenova həm istedadı, həm də ictimai fəaliyyətinə görə hörmət bəsləyirdi.

Vurğulamaq yerinə düşər ki, o, müsahibələrinin birində Ulu Öndərlə tez-tez görüşdüyünü bildirib və hər görüşün bir ömürlük xatirəsi olduğunu vurğulayıb: ”O, demək olar ki, mənim müəllimim idi. Heydər Əliyev, Dinmuhammed Kunayev - bu insanlar mənim siyasi və ümumtürk dünya görüşümü formalaşdırıblar”. Dövlət başçısı Prezident İlham Əliyev görkəmli şairin ən çətin zamanlarda da öz köklərinə, xalqına sadiq olduğunu və Qazaxıstanın uğurlu inkişafı üçün əlindən gələni əsirgəmədiyini diqqətə çatdırıb.

Türk dünyası ölkələrinin birliyi, türkdilli ölkələr arasında həmrəyliyin möhkəmləndirilməsi işində görkəmli şairin səylərini vurğulayan Prezident İlham Əliyev bunun, xüsusən hazırda dünyada vəziyyətin dəyişdiyi dövrdə mühüm əhəmiyyət daşıdığını diqqətə çəkib. Oljas Süleymenov Azərbaycanın bir neçə ali mükafatı ilə təltif olunub. Onu da xatırladaq ki, Azərbaycan və Qazaxıstan respublikaları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsindəki xidmətlərinə görə dövlət başçısı Oljas Süleymenov ”Şöhrət” ordeni ilə təltif edilib. Dünyanın 22 görkəmli mütəfəkkiri sırasına daxil olan Oljas Süleymenov AMEA Elmi Şurasının qərarı ilə xalqlar arasındakı dostluğun möhkəmləndirilməsində əvəzsiz xidmətlərinə görə, Nizami adına Ədəbiyyat İnstitutunun Fəxri Doktoru adına layiq görülüb.

Azərbaycanla Qazaxıstan arasında mədəni əlaqələrin inkişafına verdiyi töhfələrə görə isə cari ilin may ayında dövlət başçısının Sərəncamı ilə ”Şərəf” ordeni ilə təltif edilib və Cənab Prezident ordeni görkəmli qazax şairinə təqdim edib.

*Z. BAYRAMOVA*

## Misirin nüfuzlu qəzetləri Ermənistanın hərbi təxribatlarından yazıb



Misirin nüfuzlu ”Əl Əhram” və ”Əl Masr Əl Yom” qəzetlərində son günlər Ermənistanın törətdiyi hərbi təxribatlardan bəhs edən materiallar dərc olunub.

AZƏRTAC-ın xəbərlərinə istinadla dərc olunan materiallarda bildirilir ki, Azərbaycanın Müdafiə Nazirliyi 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladığı üçtərəfli Bəyanata uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin qalıqlarının Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən tam şəkildə çıxarılmasının təmin olunmadığını bəyan edib.



Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, Azərbaycan tərəfi son günlər ərzində Ermənistanın üçtərəfli Bəyanatı kobud şəkildə pozaraq, öz silahlı qüvvələrinin şəxsi heyətini Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə daşıması, Muxtarkənd, Şuşakənd məntəqələri yaxınlığında, eləcə də Kəlbəcər və Laçın rayonlarının inzibati hüdudlarının şərq istiqamətindəki ərazilərdə yeni erməni postlarını qurması hallarını müşahidə edib və buna qarşı adekvat tədbirlər görülür.

Yazılarda qeyd olunub ki, Azərbaycan Müdafiə Nazirliyi bütün bunların Ermənistanın yeni müdafiə naziri Arşak Karapetyanın Ermənistan ordusuna bütün vasitələrdən istifadə edərək güc tətbiq etmək barədə verdiyi məsuliyyətsiz və təhrikçi əmrinin fonunda baş verdiyini vurğulayıb, Rusiya sülhməramlı qüvvələrinin üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq müvəqqəti dislokasiya olunduqları Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin yerləşdirilməsi hallarına son qoymasını tələb edib.

## Vaksinlər hansı şəraitdə saxlanılır? - TƏBİB-dən AÇIQLAMA

Vaksinlər də dərman vasitələridir, sadəcə bioloji vasitələrdir. Bunlar digərlərindən daha həssas qrup hesab edilir. Çünki saxlanılması, daşınması, tətbiqi, istehsalı daha çətin və daha məsuliyyətlidir. SiA xəbər verir ki, bunu TƏBİB-in Dərman və tibb vasitələri departamentinin rəhbəri Elmin Quliyev deyib.




Onun sözlərinə görə, 2020-ci ildən bütün dünyada tədqiqatlar başladı və koronavirusa qarşı bir çox yeni dərman vasitələri təsdiqləndi. Ölkəmizdə olan 4 vaksinin hər biri kliniki tədqiqat mərhələsini keçib.

”Bu təkcə bizdə deyil, ÜST-ün və qabaqcıl ölkələrin laboratoriyalarında yoxlanılıb. Lakin yeni dərmanlar olduğundan təhlükəsizliyi daim araşdırılır. Vaksinlərin ilk istehsalından daşınmasına qədər soyuq zəncir sistemi tələb olunur. Bu o deməkdir ki, həmin vaksinlər soyuducularda saxlanılır və bir-birindən fərqlidirlər. Məsələn, ”Coronavac” vaksini 2-8 dərəcə temperaturda saxlanılan vaksindir, eynilə ”AstraZeneca” da 2-8 dərəcədə saxlanılır. ”Pfizer” vaksini isə ultra soyuq zəncir tələb edir, - 60, - 80 dərəcədə saxlanılmalıdır. Digər vaksin ”Sputnik-V” -20 dərəcədə saxlanılan vaksindir”.

Qurum rəsmisi bildirib ki, bu vaksinlərin hər birinin daşınmasına nəzarət sistemi ölkədə yaradılıb. Soyuq zəncir sisteminə nəzarət var: ”TƏBİB İcbari Tibbi Sığorta Agentliyi ilə birgə vaksinlərin saxlanma şəraiti ilə bağlı təlimat hazırlayıb və bu təlimatlar bütün tibb müəssisələrinə göndərilib. Həmin tibb müəssisələrinin vaksin məntəqələrində çalışan əməkdaşların hər biri bu təlimatla tanış edilib və onlara müvafiq təlimlər keçirilib. Bu günə qədər biz 50-yə yaxın belə təlim keçirmişik. Vaksinlərin ilkin mərhələsindən daşınmasına qədər temperatur daim izlənilir və 2-3 dəqiqədən bir qeydə alınır. Pfizer vaksini -60, -80 dərəcədə 6 ay müddətində saxlanıla bilər, amma şirkət validasiya fəaliyyətlərini davam etdirdikdən sonra elan etdi ki, vaksini 2-8 dərəcə şəraitdə 31 gün saxlamaq müəmkündür. Bu bütün dünyanın da işini bir az asanlaşdırdı”.

# Vüqar Rəhimzadə: Vaksinasiya prosesində fəal iştirak edək, yenidən qapanmalara yol açmayaq!



*“Koronavirus infeksiyasının dünyanı cənginə aldığı ötən iki ilə yaxın müddətdə Azərbaycan ilk gündən istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə bu dəhşətli bəşəri bəlaya qarşı mübarizədə ardıcıl və məqsədyönlü tədbirləri ilə fərqlənir.*

Əksər dövlətlərin ilk günlərdən özünəqapanmaya üstünlük vermələrinə dərhal münasibət bildirən dövlət başçısı İlham Əliyev qlobal problemə qarşı birgə mübarizənin aparılmasına, hər bir ölkənin öz təcrübəsini ortaya qoymasına çağırışlar etdi. Azərbaycan Prezidentinin təşəbbüsü ilə Türk Şurasının, Qoşulmama Hərəkatının Zirvə görüşlərinin, BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi, Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına - 5 milyonu qurumun ümumi pandemiya ilə bağlı tədbirlərinə, 5 milyonu isə Qoşulmama Hərəkatına üzv olan kasıb ölkələrə yardım üçün nəzərdə tutulan 10 milyon dollar məbləğində könüllü ianə ayırması, 30-dan artıq ölkəyə humanitar yardım göstərməsi bütün bunlara əyani sübutdur. Bundan əlavə, Prezident İlham Əliyevin bəzi inkişaf etmiş ölkələrin ”peyvənd millətçiliyi” siyasətinə etirazını ifadə edərək bu məsələyə münasibətdə BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsinə dair qətnamə irəli sürməsi və həmin sənədin cari ilin mart ayında yekdilliklə qəbul edilməsi və sair kimi biri-birindən əhəmiyyətli addımları ölkəmizin bu bəladan yalnız özünün deyil, bütün ölkələrin az itki ilə çıxmasında maraqlı olduğunu nümayiş etdirir. Eyni zamanda, Azərbaycan hazırda inkişaf etmiş ölkələri və beynəlxalq donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə də az inkişaf etmiş ölkələrə pandemiya ilə mübarizə sahəsində yardım etməyə çağırır. Hesab edirəm ki, Azərbaycanın COVID-19-la mübarizədə tətbiq etdiyi modelin Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunə kimi təqdim olunması ölkəmizin humanitar siyasətinə beynəlxalq səviyyədə verilən qiymətin əyani təzahürüdür.”

Bu fikirləri ”İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə diqqəti dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkə daxilində həyata keçirilən mübarizə tədbirlərinə yönəldərək xüsusi vurğulayıb ki, ölkəmizdə əhalinin sağlamlığının qorunması, vətəndaşların beynəlxalq standartlarına uyğun tibbi yardımla təmin olunması həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir: ”Dünyada yayılan yeni növ koronavirus infeksiyasının coğrafiyasının genişlənməsi ölkəmizdə də bu xəstəliyə yoluxma hallarının qarşısının alınması məqsədilə müvafiq tədbirlərin gücləndirilməsini zərurətə çevirdi. Əhalinin müxtəlif təbəqələrinin, o cümlədən sahibkarlıq subyektlərinin bu növ tədbirlərə dəstək verməsi, sosial həmrəylik nümayiş etdirilməsi görülən işlərin səmərəliliyinə təsir edən xüsusi əhəmiyyətli məsələlərdən olmaqla yanaşı, sosial məsuliyyəti, dövlət-vətəndaş birliyini əks etdirən əsas faktorların bariz göstəricisidir. Heç də təsadüfi deyil ki, Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli ”Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanında görüləcək işlərin ümumi mənzərəsi təqdim olunmuşdur.”

”COVID-19-la mübarizənin ilk günlərindən başlayaraq Azərbaycanda bu məqsəd üçün zəruri infrastruktur yaradıldı, bütün texniki-təşkilati məsələlər uğurla həll edildi” söyləyən baş redaktor qeyd edib ki, 13 modul tipli xəstəxana, ”Yeni klinika” kimi unikal tibb müəssisəsi istifadəyə verildi: ”Koronavirus infeksiyasından qorunmağın ən başlıca şərti olan maskaların, tibb işçilərinin istifadəsi üçün nəzərdə tutulan xüsusi qoruyucu geyimlərin istehsalına başlanıldı. Dünya ölkələrindən təcrübəli həkimlər dəvət edildi. Karantin rejimlərinin, məhdudiyyətlərin tətbiqi ilə pandemiyanın yaratdığı çətinliklərin aradan qaldırılması üçün müvafiq orqanların birgə fəaliyyəti təşkil olundu. Pandemiyanın ikinci, üçüncü dalğalarının, müxtəlif ölkələrdə fərqli ştammlar haqqındakı xəbərlərin yayıldığı zamanlarda belə ölkəmizdə mübarizə tədbirlərinin gücləndirilməsinə diqqət artırıldı. Bütün bunların məntiqi nəticəsidir ki, hazırda ölkəmizdə ”Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq peyvəndləmə prosesində iştirak edən könüllülərin sayı artmaqdadır.”

V.Rəhimzadə dövlətin həyata keçirdiyi bu tədbirlər fonunda son günlər daha çox nəzərə çarpan vətəndaşların daha ciddi yanaşmamasının yaratdığı problemləri təəssüflə qeyd edib: ”Təəssüflər olsun ki, Azərbaycanda da yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxanların sayında yenidən artım müşahidə edilməkdədir. Bu hal yenidən sərt karantin rejiminin tətbiqi məsələsini gündəmə gətirə bilər. Nəhayət, hər birimiz dərk etməliyik ki, məhdudiyyətlərin yenidən tətbiq edilməsini istəməsək də, laqeydliyimizlə, arxayınçılığımızla vəziyyətin ağırlaşmasına, virusa yoluxmanın artmasına səbəb oluruq. Statistikaya uyğun olaraq karantin rejimində sərtləşmələr və yumşalmalar müsbət addım kimi dəyərləndirilsə də, vətəndaş məsuliyyətsizliyi ciddi problemlərin yaranmasına rəvac verir. Bir neçə ay əvvəl yoluxma sayı xeyli azalsa da, iyulun sonlarından etibarən günbəgün artan rəqəmlər artıq 2 mini ötüb. Hazırkı narahatedici şərait onu deməyə əsas verir ki, əgər yoluxma sayı kəskin şəkildə artarsa, yenidən qapanmalara gedilməsi artıq qaçılmaz olacaqdır. Yoluxma hallarının kəskin artımının qarşısını almaq, sərt karantin rejiminin tətbiq edilməməsi üçün profilaktik qaydalara əməl edilməsi ilə yanaşı, vaksinasiyada sağlamlıq imkanlarımız çərçivəsində fəal iştirak etməyimiz önəmlidir. Artıq avqustun 9-dan COVID-19 əleyhinə peyvəndə əks-göstərişi olan vətəndaşlar üçün ”Əks-göstəriş sertifikatı”nın verilməsinə başlanılıb. Vaksinasiya üçün əks-göstərişi olanlar ilk növbədə poliklinikalara müraciət edərək həkimlər tərəfindən müayinə olunmalıdırlar. Poliklinika onların məlumatlarını Səhiyyə Nazirliyi tərəfindən yaradılmış xüsusi komissiyaya təqdim edir və komissiyanın rəyi əsasında vətəndaşa ”Əks-göstəriş sertifikatı” veriləcək.”

V.Rəhimzadə bütün bunlardan əlavə günümüzün əsas çağırışlarını da diqqətə çatdırıb: ”Qaydalara ciddi riayət edək. Arxayınçılığa son qoyaq, gigiyena və təhlükəsizlik qaydalarına əməl edək, gündəlik həyatda bu qaydaların pozulması hallarının qarşısını alaq. Mövcud vəziyyətlə əlaqədar vətəndaşların vaksinasiya prosesinə daha fəal cəlb olunmalarına, qapalı məkanlarda maskadan istifadəyə, sosial məsafənin saxlanmasına, gigiyenik qaydalara riayətin zəruriliyinin təbliği istiqamətində işlərin gücləndirilməsinə dəstək göstərək.”

Baş redaktor onu da diqqətə çatdırıb ki, laqeydliyin və təhlükəsizlik tədbirlərinə riayət olunmamasının hansı ağır nəticələrə gətirib çıxartdığı günümüzün reallıqlarında öz əksini tapıb: ”Ölkə ictimaiyyətinə əsas mesaj budur ki, yoluxma və ölüm sayında artım bu templə davam etsə, yenidən məhdudiyyətlərin tətbiqi məsələsi gündəmə gələ bilər. Qonşu ölkələrdə - Gürcüstanda, Rusiyada, İranda son sutkada yoluxmalar kəskin şəkildə artıb. Təbii ki, virusun yeni ştammlarının region ölkələrində yayılması Azərbaycan əhalisi üçün də ”sos” siqnalı olmalıdır. Ümumdünya Səhiyyə Təşkilatının ekspertləri yeni ştammların yarana biləcəyini, onların sayının artacağını bildirir. ABŞ-ın baş infeksionisti isə bildirir ki, vaksinlərə qarşı müqavimət göstərə bilən ştammlar peyda ola bilər.”

Vüqar Rəhimzadə bir daha vətəndaşları məsuliyyətli olmağa, vaksinasiya prosesində fəal iştirak etməyə, ən əsası hər bir məsələnin həllində vacib amil olan maarifləndirmə işinin gücləndirilməsinə töhfələr verməyə çağırıb.

# “Gənclər cəmiyyətdə bütün proseslərin aparıcısı rolunu oynayır”





“Hər zaman olduğu kimi gənclər cəmiyyətdə bütün proseslərin aparıcı qüvvəsi rolunu oynayırlar. Əlbəttə ki, zaman keçdikcə gənclərin cəmiyyətdəki rolu onların üzərinə düşən vəzifələr daha da artır”. Bu sözləri SiA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Bəxtiyar İslamov deyib.

Onun sözlərinə görə, Azərbaycan gəncliyi perspektivindən baxdıqda onu deyə bilərik ki, bu gün formalaşan Azərbaycan gəncliyi bir çox məqamlardan müsbət mənada özünü göstərir: ”Biz ötən il 44 günlük Vətən müharibəsində də gördük ki, Ali Baş Komandan cənab Prezident İlham Əliyevin rəhbərliyi altında böyük əksəriyyəti müstəqillik dövründə formalaşan Azərbaycan gənclərindən təşkil olunmuş Azərbaycan Ordusu tarixi ədaləti bərpa etdi və böyük qəhrəmanlıq şücaət göstərərək torpaqlarımızı işğaldan azad etdi. Bu gün Azərbaycan gəncliyi vətənpərvərlik, milli maraqların qorunması tərəfindən müsbət aspektdədir. Müasir dövrün öz yeni çağırışları, innovativ üstünlükləri də vardır ki, bu da hər bir gənci daha rəqabətcil olmağa, öz olduğu peşəsində sahəsində müasir yeniliklərə, rəqəmsal dəyişikliklərə innovativ proseslərə daha yaxşı adaptasiya etməyə sövq edir. Ona görə də, bu gün Azərbaycan gəncliyi bu istiqamətdə özünü göstərir. Azərbaycan gəncinin digər bir üstün cəhəti bütün proseslərə sürətli şəkildə adaptasiya olmasıdır. Biz bunun pandemiya dövründə də bir daha şahidi olduq ki, Azərbaycan gəncliyi pandemiya dövrünün gətirdiyi yeni reallıqlara, gətirdiyi çətinliklərə necə sürətli şəkildə uyğunlaşdı. Müasir dövrün yenilikləri, innovasiyaları dedikdə bu gün istənilən bir insan üçün xüsusilə də gənclər üçün ən lazım, ən vacib özəllik adaptasiya məsələsidir. Ona görə də, Azərbaycan gənci sürətli proseslərə adaptasiya olmağa, məsələləri sürətli şəkildə başa düşüb analiz etməklə digər ölkələrin gənclərindən yaxşı mənada fərqlənir. Ona görə də düşünürəm ki, bu, özlüyündə çox vacib keyfiyyətlərdir və Azərbaycan gəncində unikal model yaranır ki, bu gün Azərbaycan gəncliyi bu məqamları birləşdirdikdə vətənpərvər, milli maraqların qorunması yönümündə hər zaman addımlamağa hazır, məsələlərə yalnız öz şəxsi maraqlarına yox, ümummilli maraqlardan baxa bilən, dünyagörüşlü, öz peşəsində daim yeniliklərə hazır gənclik olaraq formalaşır”.



ATGTİ - Üzv təşkilatlar və tələbə klubları ilə iş sektorunun rəhbəri Orduxan Qəhrəmanzadə: ”Azərbaycan gəncliyinin günümüzdə Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətindən faydalanmaq imkanları artmaqdadır. Gənclərin cəmiyyətimizdə rolu bu imkanlardan xəbərdar olaraq onlardan faydalanmaq, onlar üçün yaradılan şəxsi inkişaf və təhsil imkanlarını ölkəmizin inkişafı üçün bir vasitəyə çevirməkdir. Azərbaycan gənci şüurlu, dinamik, yaradıcı, öz və milli mənafeyi üçün vacib olan məsələləri dərk edən vətəndaşdır. Bu gün hər bir Azərbaycan gənci özündə bu sadalanan xüsusiyyətləri inkişaf etdirməli, Ali Baş Komandanın rəhbərliyi altında qazandığımız tarixi zəfərimizdən sonrakı yürüdülən dövlət siyasətinə dəstək olmalıdır. Əlavə olaraq, qlobal post-pandemiya və regional post-müharibə dövründə yaranan və yarana biləcək təhdidlərə qarşı gənclər bir yumruq olmalı, bütün xarici təhdidlərə qarşı dəmir yumruq kimi birləşməlidir. Azərbaycan gəncləri yuxarıda sadalanan məsələlərə öz konstruktiv mövqeyini göstərə bilmək bacarığı ilə fərqlənir və ümid edirəm ki, ölkəmizin inkişafında gənclərimizin rolu artan templə getməyə davam edəcəkdir”.

”İrəli” İctimai Birliyinin sədri Şahin Rəhmanlı: ”Bu gün Azərbaycan gənci Ulu Öndər Heydər Əliyevin arzuladığı gənclikdir. O istəyirdi ki, Azərbaycan gənci Şekspiri ingilis dilində, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun. İndi bu arzular gerçəkləşib. Dövlət idarəçiliyində, beynəlxalq təmsilçilikdə, ordu quruculuğunda, müxtəlif elmi konfranslarda - bir sözlə bütün ictimai-siyasi proseslərdə Azərbaycan gəncləri aktiv rol oynayırlar. Dövlət Gənclər Siyasəti Azərbaycan Gəncliyinin inkişafı və cəmiyyətdə uğurlu olması istiqamətində bütün tədbirləri özündə ehtiva edir, onları əsl vətənpərvər kimi yetişdirir. Bunun məntiqi nəticəsi kimi, Vətən müharibəsində ölkə gənclərinin istər ön, istərsə də, arxa cəbhədə yüksək fəallığını qeyd edə bilərik. Gənclik cəmiyyətin dinamik qüvvəsi olduğuna görə ona məxsus xüsusiyyətlər də daha çox müsbət yönə köklənməlidir. Bu xüsusiyyətlərə savadlılıq, sağlam düşüncəlilik, mənəvi-ideoloji tərbiyəlilik və s. aiddir. Azərbaycan gənci özündə bir çox müsbət keyfiyyətləri birləşdirir. Cəsur, çalışqan, intizamlı, adət-ənənələrinə hörmətlə yanaşan və ən əsası vətənpərvərlik kimi ali xüsusiyyətlər bizim gəncləri digərlərindən fərqləndirir. Onlar daim çalışır ki, öz sahələrində ən yaxşı olsunlar və bunu bacarırlar da. Ölkə prezidenti Cənab İlham Əliyev də hər zaman çıxışlarında Azərbaycan gəncinə arxalandığını və gənclərin də ona arxalana biləcəklərini qeyd edib. Bu gəncliyimizə olan diqqət və qayğının ən ali təzahürüdür. Azərbaycan gənci bu sözlərin fonunda hər bir sahədə yalnız uğura, yüksəlişə və irəliyə baxır”.

SORĞU

***Arzu Qurbanzadə***

# 16 avqust xalq şairi Bəxtiyar Vahabzadənin doğum günüdür

**Əqli düşüncəsini fəlsəfi görüşlərində əks etdirən şair**

**Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,
Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.
Sənin öz dövlətin, öz millətin, öz cəddin var
Vətən uğrunda ölənlər ölümündən doğular.**

Bu müdrik misralar insana Vətənin böyüklüyünü, onun müqəddəsliyini bir daha aşılayır. Vətən bu müqəddəs məkanda doğulan, onun üstündə gəzən varlıqların diyarıdır. "Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik. Biz Vətən naminə ölsək, dirilərdən diriyik". Əlbəttə ki, Vətən uğrunda ölənlər ən müqəddəs insanlardır və tarix boyu belə insanların ismi nə yaddaşlardan, nə də yazılı salnamələrdən silinmir. Əlbəttə ki, belə ruhda yazıb-yaradan, Vətən müqəddəsliyini, sevgisini belə möhtəşəm sözlərlə, rənglərlə ifadə etmək yaradıcı insanın içindən boy verən ali sevginin təzahürüdür. Bu sevgi müdrik qələmdən yazıya köçə bilən, dünya görmüş bir insanın düşüncələrinin əksidir. Bu hikmət Bəxtiyar Vahabzadə dünyasından qopan bir təşnədir. Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr verən xalq şairi Bəxtiyar Vahabzadə Azərbaycan şeirinin son yarıməsrlik təkamül prosesində səsi, qələmi olan şairdir.

**Vaxtın dəyirmanında daş əridi, qum oldu,
Tarixə atdığımız qayıtdı, lüzum oldu.
Dünənin həqiqəti bu gün tərs yozum oldu,
Niyə də yozulmasın, axı, dünya fırlanır.**

Böyük bir fəlsəfə var, bu misralarda. Zamanın gərdişi, çərxi-fələyin gərdişi. "Çərxi-fələk istəyir lap dolana tərsinə, əqidəmi heç nəyə dəyişmərəm mən yenə". Əqidə şairi idi, ruh şairi idi Bəxtiyar Vahabzadə. Zaman onu həyatın hər üzü ilə üz-üzə qoydu. İctimai-siyasi proseslərdə öz düşüncəsini ortaya qoydu. Böyük şair xalqın çətin günündə onunla ağladı, onun sevincinə şərik oldu. Keçdiyi ömür yolu böyük bir salnamədir. Yaradıcılıq salnaməsi. Hər sətrindən Azərbaycan səsi eşidilir. Hər misrası solmayan, üstünə kölgə düşməyən qiymətli bir xəzinədir. Paylandıqca insanların iç dünyasından bir işıq boylanacaqdır. Tərcümeyi-halı ədəbiyyatımızın silinməz səhifəsidir ki, vərəqləyərkən oxuyuruq: Bəxtiyar Vahabzadə 1925-ci il avqustun 16-da Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur. Kiçik yaşlarında ailəsilə birlikdə Bakıya köçən Bəxtiyar Vahabzadə burada orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır. O, universitetin aspiranturasında saxlanılmış, "Səməd Vurğunun lirikası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Sənətkar keçdiyi ömür yolunun hər mərhələsində böyük amalların, məsləklərin gerçəkləşməsində ömrünü şam kimi əritdi. "Şam əgər yanmırsa, yaşamır demək"- deyən şair, bir ömrün keşməkeşli, əzablı yollarında yaşayarkən yanmağın kökünü həyat eşqində, vətənə bağlılıqda dərk edirdi.

Bəxtiyar Vahabzadə elə bir şairdir ki, onun nəfəsindən duyulanlar vətənə sevgidən qaynaqlanır. Zamanın diqtəsini qəlbində çözürdü. Fikir dünyasında saf-çürük etdiklərini geniş bir aləmə bəxş edirdi. Azad düşüncədən yoğrulan fikirləri oxucuların ruhi dünyasına o qədər yaxındır ki, sanki cəmiyyətin verdiyi bir mesajı o, obrazlaşdıraraq misralara köçürüb. Fikir yükü dərin olan şair yazır:

**Qocaldır insanı, qocaldır zaman;
Ürəyin atəşi, közü qocalmır.
Dağları, daşları qocaldan zaman,
Bilmirəm, bəs niyə özü qocalmır?**

Yaxud, şair digər bir şeiri olan "Ömür" şeirində

**Deyirlər, çox azdır yüz il, əlli il,
İnsana bir ömür kifayət deyil.
Hələ isitməmiş öz yerimizi
Ölüm cəllad olub haqlayır bizi**

- yazaraq, hikmət xəzinəsindən oxucu dünyasına bir yol salır, onun arzu və istəklərini poetikləşdirir.

Xalqın milli-mənəvi dəyərlərinin çərçivəsində vətəninə xidmət göstərən şair yaradıcılıq yolunda ana dilinin saflığı, vətəninin bütövlüyü uğrunda mübarizə aparmışdır. İctimai fəaliyyəti, onun ədəbi fəaliyyətinə heç də təsir göstərməmiş, hər iki cəhətdən, məhz Bəxtiyar Vahabzadə olduğunu sübut edə bilmiş, dövrün hadisələri və tələbləri çərçivəsində yaradıcılığında özünə qarşı münasibət oyada bilmişdir. Onun ikiyə bölünmüş vətən torpağının harayından, Qarabağ faciəsindən bəhs edən şeirləri zəngin və təqdirəlayiqdir. Azərbaycan Ali Sovetinin və Milli Məclisinin deputatı seçilmiş Bəxtiyar Vahabzadə xalqımızın həyatının ən çətin və mürəkkəb anlarında baş verən taleyüklü hadisələrə münasibətdə əsl vətənpərvər ziyalı mövqeyini nümayiş etdirmişdir. 20 Yanvar faciəsi törədilən zaman Bəxtiyar Vahabzadə faciənin törənməsini aydınlaşdırmaq, onun siyasi qiymətini vermək üçün əqidə dostlarını bir araya toplayıb çıxış edərək, postsovet məkanında, yaşadığımız dövr ərzində, sovet imperiyasına xidmət etmiş insanlara qarşı yürüdülən amansız siyasətin məğzini açmağa, onun hökmünün dərinliklərini xalqa təqdim etməyə cəhd etmişdir. Bəxtiyar Vahabzadə dövrünün şairi olsa da, zamanı qabaqlayan şəxsiyyətlər sırasındadır. Əqli düşüncəsini fəlsəfi görüşlərində əks etdirən şair 20 Yanvar faciəsinin, Qarabağ şəhidlərinin ağır və mübarizəli həyat yolunu, qaçqın-köçkün həyatı yaşayan insanların nisgil və kədərini poeziyasında əks etdirmişdir.




**Azadlıq verilmir, alınır, dayan!
Onun elçisidir, ölüm, qan-qada.
Ölümə, cəfaya hazır olmayan
Millət hazır deyil azadlığa da.**

Bu misralarda bir inqilabi güc yaşanılır. Bəxtiyar səsi eşidilir. Azadlıq şairinin səsi gəlir.

**HAQQA DÜŞMƏN OLANI HAQQA TAPINDIRDI MUĞAM**

Bildiyimiz kimi, Bəxtiyar Vahabzadə tədqiqatçı-alim kimi Azərbaycan elmi qarşısında xidmətlər göstərmişdir. Şifahi ədəbi irsimizin, klassik və müasir Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsində axtarışlarının bəhrəsi olan əsərlərini elmi ictimaiyyət həmişə dərin maraqla qarşılamışdır. Azərbaycan dilinin saflığı, təmizliyi və zənginləşməsi uğrunda mübarizə Bəxtiyar Vahabzadə yaradıcılığının mühüm istiqamətlərindən birini təşkil edir. Xalqının gücü ilə yazıb-yaratmış Bəxtiyar Vahabzadə Azərbaycan dilinə qarşı soyuq münasibət gördüyü zaman qələmini bu istiqamətdə kökləyib, "Mənim ana dilim" şeirini yazaraq, bu şeirin arxasında bir şəxsiyyət kimi çıxış edib, ana dilinin qorunması, onun saflığının saxlanılması üçün bütün insanları - azərbaycanlıları anasına hörmət etdiyi tək, ana dilinə də belə məhəbbət və ehtiramla yanaşmağa səsləyirdi. Bəxtiyar Vahabzadə öz yaradıcılığı ilə bədii fikrimizin zənginləşməsində mühüm rol oynamışdır. Böyük söz ustası xalqımızın yüzillər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin yaşadılması naminə altmış ildən artıq bir müddət ərzində yorulmadan yazıb-yaratmışdır.

**Daş ürəklərdə yanıb daşları sındırdı muğam.
Haqqa düşmən olanı haqqa tapındırdı muğam**

- deyən şair ondakı tilsimlərin "Kürü ahıyla qurutdu"ğunu, "Salı yandırdı"ğını bildirib:

**Onun hər guşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam.**

Böyük söz ustadının hər misrası bir fəlsəfədir və həyatı öyrənmək üçün bəlkə də bir sirli qapıdır.

O, azərbaycançılıq məfkurəsi ilə dərindən bağlı olan və milli özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına dəyərli töhfələr vermişdir. Azərbaycan xalqının tarixinin qədim dövrlərdən bəri müxtəlif mərhələlərində baş vermiş hadisələr və böyük şəxsiyyətlərin parlaq simaları ustad sənətkarın diqqət mərkəzində dayanırdı. Ötən əsrin 60-cı illərinin əvvəllərində qələmə aldığı "Gülüstan" poemasının həyat və fəaliyyətinə çox böyük maneələr yaradacağını bildiyi halda, bu əsəri qələmə almışdır. Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə daim can atan, ömrü boyu müstəmləkə əleyhinə çıxış edən şair tarixi materiallara söykənib, milli qəhrəmanlıq ənənələrini yaşadan əsərlərlə mütəmadi çıxış etmişdir. Babəkin ölümü, ona qarşı olan xəyanət tarixi materiallar əsasında Bəxtiyar Vahabzadəyə tam dəqiqliyi ilə məlum olduğundan, o, Səhl Sumbat kimilərin vətən eşqi ilə yaşayan insanlara qarşı olan münasibətini, birmənalı qarşılayaraq, onlara qəti şəkildə etiraz və nifrətini bildirirdi.

Şairin əsərləri - şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən, ingilis, fransız, alman, fars, polyak, ispan, macar, keçmiş sovetlər birliyi xalqlarının dillərinə tərcümə edilib. Bəxtiyar Vahabzadə respublikamızın hüdudlarından uzaqlarda ölkəmizi layiqincə təmsil edərək, milli mədəniyyətimizin təbliği və ədəbi irsimizin dünyada tanıdılması naminə qüvvə və bacarığını əsirgəməmişdir. O, 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi-publisist kitabın və yüzlərlə məqalənin müəllifidir. Bəxtiyar Vahabzadənin tariximizin bir çox hadisələrini canlandıran dram əsərlərinin gənc nəslin tərbiyəsində böyük rolu olmuşdur. Onun pyesləri Azərbaycan və eləcə də, xarici ölkə teatrlarının səhnələrində uğurla tamaşaya qoyulmuş və müəllifinə geniş şöhrət gətirmişdir. Azərbaycan Akademik Dövlət Dram Teatrının səhnəsində onun "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya?", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı" pyesləri tamaşaya qoyulub. O, tarixi və müasir mövzuda 20-dən artıq irihəcmli poemanın müəllifidir. Azərbaycan poeziyasında vətəndaşlıq ruhunun qüvvətlənməsində və sənətkarlıq imkanlarının genişlənməsində Bəxtiyar Vahabzadənin müstəsna xidmətləri vardır.

Bəxtiyar Vahabzadənin ədəbi-elmi və ictimai fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. 1974-cü ildə əməkdar incəsənət xadimi adına, 1975-ci ildə respublika, 1984-cü ildə isə SSRİ Dövlət Mükafatlarına layiq görülüb. 1985-ci ildə ona Azərbaycanın xalq şairi fəxri adı verilib, 1995-ci ildə Azərbaycan xalqının milli azadlıq mübarizəsində xüsusi xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif edilib. O, bir sıra orden və medallara, o cümlədən, Azərbaycan Respublikasının ali dövlət təltifi olan "İstiqlal" ordeninə layiq görülmüşdür. Görkəmli şair, dramaturq və ədəbiyyatşünas, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, xalq şairi, əməkdar incəsənət xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor, Prezidentin fərdi təqaüdçüsü Bəxtiyar Vahabzadə ömrünün 84-cü ilində dünyasını dəyişib.

**TƏHLİL**

*Zümrüd BAYRAMOVA*

# Yolumuz Ağdamadır



*Azərbaycan iqtisadiyyatının aparıcı sahəsinə çevrilən turizmin inkişafı istiqamətində dövlətimiz tərəfindən həyata keçirilən islahatlar, reallaşan dövlət proqramları bu sahənin yüksək səviyyədə qurulmasına müsbət təsirini göstərib. Qeyri-adi təbiəti ilə seçilən Azərbaycanın füsunkarlığı da turizm üçün əlverişli şərait yaradıb. Çoxsaylı tarixi abidələr, düzənlikdən yüksək dağ zonasına qədər bir-birini əvəzləyən gözəl təbiət mənzərələri, zəngin meşə örtüyü, əlverişli iqlim, gur dağ çayları, mineral və qeyri-mineral bulaqlar və s. turizmin inkişafı üçün mühüm amillər sırasında yer alır.*

Bu gün 44 günlük müharibədən sonra Azərbaycanın işğaldan azad olunan ərazilərində də turizm imkanları genişləndiriləcək. Bu ərazilərdə olan potensial əminliklə demək olar ki, dünyanın bütün qitələrindən olan turistlərin həmin məkanlara səfər etməsinə səbəb olacaqdır. Turizm üçün bütün zəruri potensial Şuşada, Kəlbəcərdə, Zəngilanda və digər ərazilərimizdə mövcuddur. Bu ərazilərin flora və faunası, zəngin tarixi mədəniyyət abidələri xarici turistlər üçün cəlbedici olacaq.

30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımızda artıq abadlıq-quruculuq işlərinə başlanılıb. Erməni vandallarının işğalına və təcavüzünə məruz qalmış tarixi abidələrimiz təmir və bərpa olunacaq və Azərbaycanın turizm məkanlarının coğrafiyası daha geniş bir məkanı əhatə edəcək. Kəlbəcər rayonu ərazisindəki İstisu mineral suları, Şuşanın Cıdır düzü və saymaqla bitib-tükənməyən istirahət və müalicəvi məkanları dünyanın ən sayılıb-seçilən mərkəzləri olaraq diqqətdə olacaqdır.

### AĞDAM DÜNYA ÜÇÜN ÖRNƏK OLACAQDIR

30 ilə yaxın el-obasından didərgin düşmüş insanların qəlbi hər zaman bu torpaqlara qayıdışla döyünüb. Nəhayət, həmin gün yetişib. Öz ocağına yenidən dönmək və onun istisini, nəfəsini duymaq qədər dünyada müqəddəs bir şey yoxdur. Bu gün zəngilanlıların, şuşalıların və digər ərazilərdən olan insanlarımızın əlçatmaz olan arzuları gerçəkliyə çevrilib. Nəhayət ki, yaxın günlərdə ağdamlılar "Yolumuz Ağdamadır", - deyərək, öz yurdlarına səfər səfər edəcəklər. 30 ildir ki, öz doğma məkanlarına gedə bilməyən sakinlərin ziyarəti təşkil ediləcəkdir. Bildiyimiz kimi, bu ilin əvvəlindən Qarabağ Turizm Marşrutları konsepsiyası hazırlanıb. Konsepsiyaya Ağdam və Füzuli-Xocavənd marşrutları daxildir. Ağdamlılar işğaldan azad olunan Ağdamda azad nəfəs alacaqlar. 20 noyabr 2020-ci il tarixində Ağdam rayonu Azərbaycan Respublikasına qaytarıldı və insanlar böyük bir sevinci, qələbə sevincini yaşadılar. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmış oldu. Rayon ərazisinin 88%-i 1993-cü il iyul ayının 23-də ermənilər tərəfindən işğal edilmişdir. Artıq Ağdamda abadlıq-quruculuq işlərinə başlanılıb. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq. Prezident onu da bildirib ki, "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır".

### AĞDAMIN GÖRMƏLİ YERLƏRİNDƏ TARİX YAŞAYIR

Artıq Ağdamda abadlıq-quruculuq işlərinə start verilib. Ağdamın yeni, qaynar bir dövrü başlayıb. Ermənilərin vaxtilə dağıtdığı din-mədəniyyət abidələrimiz, tarixi yerlər yenidən bərpa olunacaq. Bu gün artıq azad edilmiş torpaqlarda birinci Baş Plan artıq təsdiqlənib. Ağdam şəhəri üçün çox önəmli olan 1 saylı məktəbin, Sənaye Parkının, Bərdə-Ağdam avtomobil yolunun təməli qoyulub. Dövlət başçısının tövsiyə və göstərişləri əsasında Pənahəli Xan sarayının yerləşdiyi İmarət kompleksi, Qiyaslı məscidi, Şahbulaq qalasına yeni həyat bəxş ediləcək. Burada hələ görüləsi işlər çoxdur. Belə ki. bu şəhərdə 125 hektarlıq meşə zolağı salınacaq, süni göl yaradılacaqdır.

Buraya səfər edənləri heyrətləndirən çox məqamlar var. Görməli və gəzməli yerlərdə bir tarix yaşanır. 1868-1870-ci illərdə tikilmiş Ağdam Cümə məscidi Azərbaycan memarlığının incilərindən sayılır. Bu məscid də erməni təcavüzünün qurbanına çevrilmişdir. Məscidin minarələri daxildən sökülmüş, tavanı bir neçə yerdən uçurulmuş, dizayn və yazıları pozulmuşdur. Qutlu Musa türbəsi, Xanoğlu türbəsi, Şeyx Nigari türbəsi, Uğrulla bəyin türbəsi və s. bu şəhərin tarixinin qədimliyini özündə yaşadır. Tarixi memarlıq abidələri sırasında Pənah xanın imarəti, İki sandığa bənzər abidə, Karvansara, Hatəm Məlik qalası və digərləri hər bir kəsin diqqətində ola biləcək nümunələrdir ki, turistlərin marağında olacaqdır. Ağdamın turizm məkanlarından söz açarkən, Ağdam Çörək muzeyini xüsusi olaraq qeyd etməliyik. Azərbaycanın Ağdam şəhərində yaradılan Çörək muzeyi 25 noyabr 1983-cü ildə ilk ziyarətçilərini qəbul etmişdi. Muzeydə 2800-ə yaxın eksponat vardı. Qarabağ müharibəsində Ermənistan Silahlı Qüvvələrinin hücumları nəticəsində muzeyə iki dəfə mərmi düşmüşdü. Mənbələrdə qeyd olunur ki, muzeyin 2800-ə yaxın eksponatı arasında Ağdam ərazisindəki "Çalağan təpədə" arxeoloji qazıntılar zamanı aşkar edilmiş və yaşı 3000 ildən artıq olan daşlaşmış buğda da olub. Undan hazırlanan məhsullar, o cümlədən, Gəncə, Naxçıvan, Qarabağ, Gürcüstan, Dağıstan, Səmərqənddə bişirilən çörək növləri muzeyə gələn ziyarətçilərdə böyük maraq yaradırdı.

Ağdamdakı hər bir tarixi memarlıq abidələri, yaşayış məskənləri, sərdabələr, kurqanlar və s. müxtəlif tarixi dövrləri əks etdirir və bu məkanın tarixi dönəmlərdə inkişafda olduğunu bir daha göstərir. Belə bir şəhərə səfər edəcək turistlər zəngin təəssüratlarını hər kəslə paylaşacaqlar.

*Nəzakət ƏLƏDDİNQIZI*

---

# İctimai nəqliyyatda xanımlara və yaşlılara yer verilməlidir?



"Mental dəyərlərimizə görə, qadınlara, o cümlədən də yaşlı xanımlara, hamilə qadınlara və uşaqlara hər yerdə xüsusi sayğı və hörmət göstərilir. Bu hörmət nəticəsində insanlarımız özlərini hər zaman rahat komfortlu hiss ediblər. Keçmişdə metro, avtobus və yaxud ictimai nəqliyyatın digər növlərində insanların sayı həddindən artıq çox idi. Növbələrdə bir xaos var idi. Hələ növbə, ictimai nəqliyyatdan istifadə etmə mədəniyyəti yox idi, etik davranış normaları qorunmurdu. O zaman mental dəyərlər tələb edirdi ki, qadınlar, hamilə xanımlar, analar, nənələr və yaxud yaşlı insanlara, hətta uşaqlara hər yerdə birinci növbədə imkan yaratsınlar ki, onlar ya otursunlar, ya da növbəsiz keçsinlər". Bu sözləri SİA-ya açıqlamasında Vətəndaş Cəmiyyəti Alyansının rəhbəri, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.

Onun sözlərinə görə, indi də bu prinsip durur: "Amma bəzi hallarda biz, xüsusən də yeni nəsil buna etiraz edir. Çünki, görürük ki, bir çox yaşlı xanımlar lazım gəldi və ya gəlmədi, pandemiya dövründə belə şəhərin bu başından minirlər, o biri başında düşürlər. Yəni, 30 qəpiklik yolu qət edirlər. Birincisi maşınlar yüklənir, ikincisi pandemiya dövründə sosial məsafə saxlanılmır, üçüncüsü bunlar maska taxmırlar, dördüncüsü əyləməyə, ticarətə, restorana şopinq etməyə gedirlər. Amma cavan oğlanlar ki var günün bu qızmar çağında 40 dərəcədə onlar işləyirlər, yorulurlar, usanırlar və bunlar işləməsə həmin qadınlar pensiya almayacaqlar. Həmin yaşlı adamlar çörəklə təmin olunmayacaq, şəhərlərimiz təmizlənməyəcək, maşınlar işləməyəcək, iqtisadiyyatımız bərbad günə düşəcək. Bunu bizim yaşlı xanımlar başa düşmür. Müəyyən mənada bizim ictimai nəqliyyatda sabitlik, harmoniya var və bilirsiniz ki, artıq çox tutumlu avtobuslar və digər nəqliyyat növləri alınıb. İnsanların çoxunun fərdi maşınları var və düşünürəm ki, bu məsələdə mental dəyərin bu hissəsini biz asanlaşdırmalıyıq və eynilə xarici ölkələrdə olduğu kimi biz qadınlara yer verməküçün davaya keçməməliyik. Əksinə, ictimai nəqliyyat strukturuna cavab verən məmurlardan tələb etməliyik ki, avtobuslar arası məsafə az olsun, dayanacaqlar yaxın olsun, insanlar oturacaqlardan istifadə etsinlər".



Aydın Xan Əbilov sözlərinə belə davam edib: "Əgər yer yoxdursa, basabasda ayaq üstə qalmaqdansa, xəstəliyə yoluxmaqdansa ora girməsinlər. Bu baxımdan əlbəttə ki, cavan nəslin məntiqi aydındır, "mən də 30 qəpik verirəmsə, qadın da 30 qəpik verirsə, qadın sağlamdırsa, hətta yaşlı nəslin nümayəndəsi də olsa belə mən ona niyə verməliyəm?" və üstəlik də bütün beynəlxalq beyin mərkəzləri, düşüncə mərkəzləri, tibbi mərkəzlər, hətta beynəlxalq səhiyyə təşkilatı belə fiziki müqavimət, hərəkətin insanın sağlamlığı üçün, uzun ömürlülüyü üçün lazım olduğunu bildirir və ictimai nəqliyyatda yaşlı nəslin nümayəndələrinə qadınlara hətta hamilə xanımlara belə yer verməyin deyə səslənirlər. Çünki onlar evdə divanda uzanırlar, liftdən istifadə edirlər. Evdə hərəkətsizlik, ictimai nəqliyyatda hərəkətsizlik və demək olar ki, heç bir hərəkət etmirlər. Dünyanın istənilən ölkəsində həkimin yanına getsəniz ilk növbədə həkimdən eşidəcəksiniz, ki, "gündə neçə min kilometr yol getmisiz?" Hər halda 5 kilometr və 10 kilometrə qədər hərəkətin vacibliyi, sağlamlığımız üçün önəmlidir".



QHT sədri bildirib ki, avtobuslarda biz xanımlara, qocalara yer verən zaman onların məhvinə aparıb çıxardırıq: "Əvvəlki dövr deyil ki, avtobuslar istədikləri kimi sürsünlər, tormoz versinlər. İndi bilirsiniz ki, avtobuslar üçün ayrıca xəttlər və yollar salınıb. Onlar da normal sürürlər. Eyni zamanda, təhlükəsizlik kameraları onların hər hansı bir hərəkətini, qayda pozuntusunu o dəqiqə videoya çəkir və o adam cəzalandırılaraq işdən çıxarılır. Ona görə də bir çox problemlər həll olunduğuna görə bu məsələyə bir qədər fərqli baxmağın tərəfdarıyam. Amma istənilən halda kimsə hörmət əlaməti olaraq qadınlara, yaşlılara yer vermək istəyirsə bu onun öz şəxsi istəyindən irəli gəlir və bu hörmətə layiqdir. Digər tərəfdən kimsə yer vermirsə, həmin adamı fiziki işlətmək üçün bu çox vacibdir. Yer vermirsə ona da pis baxmaq olmaz. Hər hansı bir qadın, yaşlı nəslin nümayəndəsi bir gənci buna görə tənqid, təhqir edirsə o dəqiqə o qadını inzibati məsuliyyətə cəlb etmək lazımdır ki, o kimdir ki, cavan oğlanı, gənci, fərdi, hər hansı bir insanı hörmətdən salır, nüfuzunu ləyaqətini alçaldır. Mən istərdim ki, bu məsələyə belə də yanaşaq".

*Ayşən Vəli*

ANALİTİK - EKSPERT RƏYİ

# Bakı Bəyannaməsi regional və beynəlxalq təhlükəsizliyə, əməkdaşlığa töhfədir



*İyulun 27-də təməliqoyulanüçtərəfliAzərbaycan-Türkiyə-Pakistan parlamentlərarasıəməkdaşlıqplatformasıölkələrarasında münasibətlərindahadadərinləşməsinəvəinkişafınatöhfədir. ÜçdostölkəninbirarayagəlməsindətəşəbbüskarolanAzərbaycandialoqlararasıməkanolaraq, budəfədəxoşməramlıniyyətiniortayaqoymuşoldu. Əlbəttəki, bu, dövlətlərarasımünasibətlərdəxüsusiroloynayandostluq, qardaşlıqmünasibətlərinindahadamöhkəmləndirilməsinə, stratejitərəfdaşlıqəlaqələriningücləndirilməsinəmüsbəttəsirinigöstərəcək.*

Azərbaycan, Türkiyə və Pakistan parlamentləri sədrlərinin birinci üçtərəfli toplantısının yekununda qəbul edilmiş Bakı Bəyannaməsi strateji əhəmiyyət kəsb edir. Bu Bəyannamə dövlətlərarası qarşılıqlı hörmət və etimad əsasında mövcud əlaqələrin inkişafında xüsusi rol oynayacaq. Qardaş xalqları daha da yaxınlaşdırmaq üçün həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə parlamentlərarası dialoq və əməkdaşlığını inkişaf etdirməyə yönələn səyləri qətiyyətlə bəyan edir. Bəyannamədə mövcud əlaqələri gücləndirmək və daimi komitələrin, dostluq qruplarının və prlamentlərin inzibati heyət arasında ünsiyyəti inkişaf etdirmək öhdəlikləri diqqətə çəkilib. Tərəflər beynəlxalq anlaşılmazlıqların həllində, beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində ikitərəfli və çoxtərəfli parlamentar əlaqələrin rolunu vurğulayıblar. Bakı Bəyannaməsində dövlətlər və millətlər arasında mövcud əlaqələrin daha da dərinləşdirilməsi üçün üç ölkə arasındakı parlamentar dialoq və əməkdaşlığın gücləndirməsinin vacibliyi vurğulanıb. Azərbaycan, Pakistan və Türkiyənin bölgələrində sülh, sabitlik və inkişafı yaratmaq, inkişaf etdirməkdə oynadıqları əhəmiyyətli rolları və iştirakçılığı da qeyd olunur. Bəyannamədə bu gün dünya üçün önəmli olan məsələlər diqqətdən kənarda qalmayıb. Xaricdən dəstəklənən terror hücumlarının təhdidi, kiber hücumlar, hibrit müharibələri, hədəfli dezinformasiya kampaniyaları və bir çox ölkədə müsəlman cəmiyyətlərinin sülh içində bir yerdə yaşamasına təsir göstərən məqamlar diqqətdən kənarda qalmayıb. Müasir dünyada, qloballaşma dövründə sülh və əmin-amanlığın olması bu gün hər bir dövləti düşündürməlidir. Azərbaycan multikultural bir dövlətdir. Ölkəmizdə yaşayan bütün xalqlar dinc şəraitdə yaşayır və bütün dini ayinlərini yerinə yetirirlər. Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun olaraq möhkəmlənib, dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Hər üç dövlət regional və beynəlxalq parlamentar platformlarda islamofobiya və müsəlman azlıqlara yönələn təzyiqlərə qarşı mübarizə məsələsində birgə fəaliyyət göstərəcəklər.

Müxtəlif sahələrdə əməkdaşlığa önəm verilən Bəyannamədə tərəflər nəqliyyat, ticarət, enerji, xalqlararası təmas, təhsil, sosial və mədəniyyət, turizm, informasiya və kommunikasiya texnologiyasında regioanal daha yaxşı əməkdaşlıq üçün hökumətlərinə əhatəli dəstək vermək istiqamətində də razılıq əldə ediblər. Bütün bunlarla yanaşı, Ermənistan Respublikasının Azərbaycana minalanmış ərazilərin xəritələrini verməkdən imtina etməsi qınanılıb. Azad edilmiş torpaqları yenidən inşa etmək və qaçqın sakinlərin evlərinə qayıtması istiqamətində fəaliyyətdə Azərbaycanla tam həmrəy olduqlarını vurğulayıblar.

Geniş və əhatəli olan Bəyannamə gələcək üçün uğurludur. Onu da diqqətə çəkək ki, Bəyannamədə tərəflər illik toplantı keçirməyi qərar alıblar və növbəti toplantı 2022-ci ildə Pakistanın paytaxtı İslamabadda keçiriləcək.

Bəyannamədə hər üç dövlətin qarşılıqlı maraq kəsb edən regional və qlobal mövzularda yaxından fəaliyyət göstərməyə hazır olduqları və beynəlxalq parlamentar təşkilatlarda üç qardaş ölkə olaraq ortaq bir mövqe tutmağa çalışacaqları bildirilib. Bu və digər məsələlər Bakı Bəyannaməsində yer alıb.

Əlbəttə ki, Bəyannamədə əks olunan bəndlər Azərbaycan-Türkiyə-Pakistan münasibətlərinin inkişafına, regional və beynəlxalq təhlükəsizliyə, əməkdaşlığa böyük töhfədir. Bu birlik daha böyük və geniş layihələri reallaşmasına əsas olacaq, dövlətlərarası sahələrdə müxtəlif sahələri əhatə edən işbirliyinin uğurla davam etdirilməsində böyük əhəmiyyət kəsb edəcək.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Əli Kərimli düşərgəsi: xəyanət platformasına çevrilən şərin yuvası



### Arif Hacılı Gültəkin Hacıbəyliyə hücumu niyə bəyəndi?

Nə müxalifətçi olmaq, nə hakim partiyada təmsil olunmaq ayıb deyil. Ayıb olan müxalifət olduğunu iddia edib, ona qarşı ciddi bir fikir söyləyə bilmədiyi halda "müxalifətə müxalifətçilik" etməkdir. Ayıb olan bir müxalifətçinin ölkənin uğurlarını görüb böhtanlar yazmaqla xalqı, dövləti təhqir etməklə yediyin qaba "tüpürmək"lə xalqın nifrətindən çıxa bilməməkdir. Nəinki xalqın, hətta adını "müxalifətçi" qoyanların təhqiri ilə üzləşməkdir. Necə ki, Kəramət Böyükçölün AXCP sədri Əli Kərimlinin "danışan dili" olan "Milli Şura"nın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəyli haqqında təhqiramiz ifadələri Müsavat Partiyasının sədri Arif Hacılı bəyənib. Görəsən, Arif Hacılının belə bir addım atması nə ilə əlaqədardır? Bəlkə, Arif Hacılı bu yolla AXCP-yə, Əli Kərimliyə gözdağı verir? Yaxud, Arif Hacılı bu bəyənmə ilə Gültəkin Hacıbəylinin satqınlığına, xəyanətinə işarə edir? Yoxsa, Arif Hacılı bu seçimi ilə Müsavatın söyüşə, təhqirə dəstək verdiyini nümayiş etdirir? Hər halda yəqin ki, Arif Hacılı inanırıq ki, bu addımını əsaslandıracaq açıqlama ilə çıxış edəcək.

### Gültəkin Hacıbəyli kimin "şinelindən"...

Bəzən baş verən hadisələrə münasibət bildirmirsən, "səbrli ol" -deyirsən. Ancaq bir də görürsən ki, dövlətinin, xalqının ünvanına elə bir sözlər, böhtanlar deyilir ki, bu yerdə sakit dayana bilmirsən. Və belələri böhtan atmaqla özlərini siyasətçi adlandırırlar. Bir müdrik kəlamda deyilir ki, "Hansı yana gedəcəyini bilmirsənsə, hansı yolla getməyinin heç bir əhəmiyyəti yoxdur". Siyasətin çirkin iş olduğu haqqında da belə deyirlər ki, "əslində, siyasət çirkin deyil, onunla çirkin insanlar məşğul olanda çirkin olur". Bu gün dağıdıcı müxalifət düşərgəsində AXCP sədri Əli Kərimlinin "danışan dili" olan "Milli Şura"nın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəylinin sosial şəbəkələrdəki həqiqətdən uzaq, şər-böhtan dolu çıxışlarını dinlədikcə həmin fikirlərin həqiqət olduğuna bir daha əmin oluruq. Əslində, hər addımda ikiüzlülüyü, riyakarlığı ilə tanınan, parlamentin üzvü olanda dövlətin imtiyazlarından gen-bol istifadə edərək tam komfort şəraitində yaşayanda nədənsə bu xanım tamamilə başqa cür danışırdı. G.Hacıbəylinin o zamanlar başda Ə.Kərimli olmaqla dağıdıcı müxalifət düşərgəsinin başbilənlərini yerdən-yerə vurmağını da heç kim unutmayıb. Ancaq elə ki, deputat seçilmədi, mandatdan məhrum oldu G.Hacıbəyli, hətta öz keçmiş həyat yoldaşının da etiraf etdiyi kimi, 180 dərəcə dəyişdi.

Xüsusilə də, son günlər sosial şəbəkələrdə "Milli Şuran"ın qeybətxana şousunda rəzil və mənəviyyatsız qadın olan Gültəkin Hacıbəyli haqqında nə qədər istəsən təhqiramiz sözlər deməyə haqlıdır. Çünki ölkənin hər uğuruna gölgə salmağa çalışan bu nankor və əxlaqsızlar bir şeyi unudurlar ki, hansı formada olursa-olsun, xalqının qayğısına qalan və ən ağır anlarda belə daima xalqının qayğısını çəkən Azərbaycan Prezidenti həmişə öz vətəndaşının yanındadır. Və ermənidən betər olan Əli Kərimli, Gültəkin Hacıbəyli və Cəmil Həsənli kimilər ikiüzlü, satılıb, satan, mənliklərini ayaqlar altına atan erməni qulbeçələridir. Hər ikisinin xisləti nankorluq, satqınlıq olub. Və bu gün G.Hacıbəyli kimiləri tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıb. Ənənəvi əməllərini davam etdirmək üçün neyləməlidirlər? Böhtan, şər ataraq bu koronavirus əllərinə "göydəndüşmə" olduğundan "məharətlə yaralanmalıdırlar. Bu yerdə G.Hacıbəylinin keçmiş qayınanasının dediyi sözləri xatırlatmaq istərdim: "O, mənəvi dəyərlərini itirmiş əxlaqsız, sürüşkəndir ."

### "Gültəkin üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə!"

Bəli, bunu da G.Hacıbəylinin keçmiş qayınanası deyir. Düz sözə nə deyəsən. G.Hacıbəylinin keçmiş qayınanası Nəhayət Məmmədova 14 ay gəlin olduğu müddətində ona qarşı böyük haqsızlıqlar etdiyini bildirərək, indi də həmin yolu getdiyini bildirib: "Bu, o Gültəkindir ki, doğma əmisinə "torba" tikdi. Onun əmisi İdris Hacıyevin adına "Emil" MMC açdıraraq, rayonda 20 hektar ərazidə gips karxanasına yiyələnmişdi. Sonra qazancı bölüşdürə bilmədiklərindən, Gültəkinin təzyiqi ilə Göranboy rayon icra hakimiyyətinin məhkəmədə qaldırdığı iddia əsasında İdris Hacıyev "cəzalandırıldı", karxana əlindən alındı. Bundan sonra həmin ərazi Gültəkin Hacıyevanın atası Yunis Hacıyevin adına açılmış "Gülüstan" MMC-nin icarəsinə verildi. Doğmasına qarşı nankorluq, xəyanət edən Gültəkin xalqına da, Vətəninə də bu cür addımlar atar, necə ki, indi bu çirkin yoldadır. Gültəkin üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə, nə doğmaları. Onun məramı-məqsədi şəxsi mənafeləri üçün insanları şərləmək, kələk gəlmək və sair. O, mənəvi dəyərlərini itirmiş əxlaqsızdır. İkiüzlü, sürüşkən, xain, anormal G.Hacıbəyli elə Əli Kərimli, Cəmil Həsənli kimi satqınların, ikiüzlülərin yanında olar. Belələri ən ağır cəzaya məhkumdur".

Bax, simasız, satqın, əxlaqsız buna deyərlər. Doğrudan da, qadının rəzil olması bədbəxtçilikdir. Çamura batmış G.Hacıbəyli pula görə həya nə demək olduğunu belə anlamır. İndi də G.Hacıbəyli, guya xalqın "dərdinə yanır". Görünür, G.Hacıbəyli hələ çox havalanacaq, çünki o, Əli Kərimli kimi satqın şinelindən çıxmış rəzil, keçmiş qayınanasının dediyi kimi, əxlaqsız, satqın və cinayətkardır. Və ona görə də hamını satqın adlandırır. Bu yerdə kor-kora kor deməsə, doğrudan da bağrı çatlar. Bəlkə utanasan. Utanmağa üz olarsa. Sosial şəbəkələrin daimi kliyenti G.Hacıbəyli, dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmadığını bir oturub düşünəsən? Adamın yazığı gəlir. Bunu anlaya bilməzsən. G.Hacıbəylinin keçmiş qayınanasının dediklərini eşidəndə bir daha bu qadının nə qədər mənəviyyatsız və satqın olduğunun şahidi olursan.

Beləliklə, sözümün canı ondadır ki, bu siyasətə qoşulan sosial şəbəkə quldurları heç əslində siyasətin nə demək olduğunu belə anlamırlar. Çünki yolların azıblar. Elə yolunu azanın da təhqir olunması yerində və məqamındadır. Çünki beləleri qudurub quduzlaşırlar. Nəticədə də nə cəmiyyət, nə də ictimai rəy beləlerini qəbul etmir. Hətta "müxalifətçiyəm" deyənlər də. Çünki hər kəsə çox gözəl bəllidir ki, üzüdönüklərdən, yollarını azanlardan fərli adam olmaz...

*Rəfiqə HÜSEYNOVA*

# “Könlü sınıq” Suriya erməniləri

***Bu gün ermənilər üçün başqa bir dərd də gözləmədikləri yerdən çıxıb. "Müstəqil dövlətin müstəqillik günü"nün 30-cu ildönümü yaxınlaşır, amma hələ ki, bununla bağlı heç bir səs-səmir yoxdur. Belə getsə, görünür, həmişə olduğu kimi, bu dəfə İrəvanın Respublika Meydanında keçirilən təmtəraqlı hərbi parad da olmayacaq. Hələ ki, başı içkidən ayılmayan rusların 21 sentyabr - Ermənistanın müstəqillik gününə qədər biz ermənilər üçün "qüdrətli bir ordu" yaradacağı da inandırıcı görünmür. Əslinə qalsa, bu gün bizim parada çıxarılacaq fərli bir top-tüfəngli avtomobillərimiz də yoxdur. Nə var idi, hamısını o vaxt Qarabağda qoyub qaçdıq.***



Belə görünür, Nikol Paşinyan müstəqillik gününə qədər müvəqqəti olsa da, bütün bunları haradansa, kimlərdənsə icarəyə götürmək barədə də heç nə fikirləşmir.

Deyəsən, bu hökumət Ermənistanı dünyada biabır etmək istəyir. Budur, neçə vaxtdan bəri İrəvandakı tələbə yataqxanalarında müvəqqəti sığınacaq tapan erməni qaçqınlarını indi də yataqxanalardan çıxarırlar. Səbəb də gətirirlər ki, bəsdir havayı yaşadınız, yaxınlarda yeni tədris ili başlayır, İrəvana gəlib yataqxanada yaşayacaq xarici tələbələr, sizdən fərqli olaraq, pul ödəyirlər. Özü də xarici valyuta ilə ona görə də onlar gələnə qədər başınızın çarəsini qılın.

Müvəqqəti olaraq yataqxanalara sığınan ermənilər də sual edirlər ki, nə ilə - yəni nə pulumuz var, nə də işimiz.

Əslində, ermənilərin bu sualı kimə ünvanladıqları mənə çatmır. Çünki əgər onlar bu sualı ölkə səlahiyyətlilərinə ünvanlayırlarsa, təbii ki, bu, yersizdir. Ona görə ki, erməni səlahiyyətlilərinin bununla bağlı təsirli tədbirlər görmək niyyətləri olsaydı, arxada qalan 9 ay ərzində bir iş görərdilər.





Bundan əlavə, vaxtilə Yaxın Şərqdə yaşayıb özünə erməni deyənləri evlərindən edib, aldadaraq "daimi yaşamaq" üçün Qarabağa gətirdən erməni səlahiyyətliləri, bunun sabahını düşünmürdülərmi? Budur, indi də ermənilər arasında "ikitirəlik", yəni ayrıseçkilik yaranıb. Belə ki, sabiq qarabağlıları "sevməyən" ermənistanlı ermənilər Yaxın Şərqdən gələn erməniləri heç yaxına belə buraxmırlar. Hətta o gün "Ermənistan missiyası" təşkilatının səlahiyyətli nümayəndəsi Hasmik Manukyan Suriyadan aldadılaraq gətirilən erməni qaçqınlarına kirayə qalmaq üçün ödədiyi az miqdarda da olsa pulla yanaşı, onlara ev əşyaları, mətbəx qabları, gigiyena ləvazimatları da paylayıb. Nə var ki, onların "könlü sınıqdır" tez küsürlər".

Ermənilərin erməni səlahiyyətlilərindən bir gileyi də var: diqqət yetirin ki, hərbi əməliyyatlardan qaçaraq Ermənistanda sığınacaq tapan Qarabağ erməniləri səlahiyyətlilər tərəfindən hələ də miqrant, müvəqqəti köçkün kimi tanınır. Amma sən demə, bu, belə olmamalıdır. "Erməni uzaqgörənliyinə" görə, əgər səlahiyyətlilər onlara "qaçqın statusu" verib dünya ictimaiyyətinə "qaçqın" kimi tanıtsaydılar, bu halda Ermənistana göndərilən ianələrin qabağını yığıb-yığışdırmaq olmazdı.

***Ağasəf Babayev***

# Metro yollarında hansı daha səmərəlidir? -
## DƏMİR BETON BLOK, YOXSA AĞAC ŞPAL

***“Metropolitenin istismarda olan tunel yollarında ilk dəfə dəmir beton bloklar "Cəfər Cabbarlı" və "Xətai" mənzilinin bir hissəsində tətbiq olunacaq”. Bunu SiA-ya açıqlamasında "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.***







Onun sözlərinə görə, bu beton yol təxminən 500 metr məsafəni əhatə edəcək: "Bilirsiniz ki, "Cəfər Cabbarlı" stansiyasında bir yolun əsaslı təmir və yenidənqurma işlər səbəbindən dayandırılıb. Bu səbəbdən "Xətai" və "Cəfər Cabbarlı" mənzilinin dayandırılan hissəsində qatarların gediş-gəlişi məhdudlaşdırılıb. Bir hissəsində gediş-gəliş mövcuddur. Bu işlər çərçivəsində metro tarixində ilk dəfə istismarda olan tunel yolu dəmir-beton blokdan ibarət olacaq. Birinci olaraq onu xüsusi qeyd edim ki, ağac şpallar xaricindən gətirilir. Təbii ki, buna böyük maliyyə vəsaiti xərclənir. Bura gətirilməsi, gömrük rüsumu və digər rüsumlar da nəzərə almaqla kifayət qədər baha başa gəlir. Dəmir beton bloklar isə "Bakı Metropoliteni" QSC-nin özünün istehsalat sahəsində hazırlanır. Hazırlanması zamanı yeni Yeni xammallardan istifadə olunur. Almaniya texnologiyasından tətbiq olunur. İşçi qüvvəsi, xammal yerli olduğu üçün təmiz Azərbaycan brendidir. Bu vasitə ilə "Bakı Metropoliteni"nə iki dəfəyə yaxın qənaət etmək imkanı verir. Burada qənaətdən daha çox keyfiyyət və səmərəlilik önəmlidir. Dəmir beton blokların istismar müddəti 50 ildir, ancaq ağac şpallarının istismar müddəti 30-40 illə məhdudlaşır. Lakin, Bakının ağır geoloji şəritində bu maksimum 15-10 il çəkir. "Xətai" - "Cəfər Cabbarlı" kimi ağır hidrogeoloji şəriati olan sahələrdə isə 7-10 ilə kifayətlənir. Bu baxımdan 5 dəfədən çox oan fərqi hiss etmək mümkündür. Dəmir beton bloklar ağac şpallarına görə daha dözümlü və səmərəlidir. Bundan əlavə olaraq dəmir betonlara qulluq daha asan və sadədir. Beləliklə, işçi qüvvəsindən səmərəli istifadə etmək kimi məsələlər də gündəmə gəlir. Belə yollarla qatarların hərəkəti daha səlis və daha rəvan olacaq. Çünki burada da tətbiq olunan yolun elementləri ən müasir tələblərə cavab verir. Sərnişin rahatlığı və təhlükəsizliyi baxımından da çox əhəmiyyətlidir. Xüsusi qeyd edim ki, bunu tətbiq etmək üçün həmin sahədə hərəkəti dayandırmaq lazımdır. Bu dəmir blokların qoyulması uzun müddət vaxt tələb edir və standartları tunel şeritində tətbiq etmək olduqca çətindir. Buna görə "Cəfər Cabbarlı" və "Xətai"də 500 metrlik məsafənin dəmir beton ilə tətbiqi 5-6 ay vaxt ərzində ərsəyə gələcək. Hərəkətin təşkili müddətində bu dəmir beton blokları təşkil etmək müşkül məsələdir. Amma 2019-cu ildən bəri "Bakı Metropoliteni" hərəkəti dayandırmadan bu texnologiyaları tətbiq etmək yollarını dərindən araşdırır. "Bakı Metropoliteni" özünün istehsalat sahəsi və təcrübə apardığı laboratoriyası mövcuddur. Bunlar dünya təcrübəsinə və elmi praktikaya söykənir".

***Qönçə Quliyeva***

***Bu günün yeniyetməsi, körpəsi Azərbaycanın sabahı, onun yaradıcısıdır. Hər bir ölkənin gələcək inkişafı məhz onlardan asılıdır. Uşaqların sağlam mühitdə böyüməsi, tərbiyə alması üçün dövlətimiz tərəfindən ardıcıl olaraq tədbirlər görülür. Bu qayğı sağlam düşüncəli, sağlam ruhlu, sağlam vücudlu insanların yetişməsi ilə yanaşı, onların vətənə bağlı, vətən sevgili vətəndaş kimi böyüməsinə xidmət edir.***

# Gələcəyimiz olan uşaqlara dövlət qayğısı

Uşaqların layiqli vətəndaş kimi yetişmələri, uşaqlarla bağlı sosial problemlərin həlli, uşaq hüquqlarının etibarlı təminatı baxımından dövlət səviyyəsində bütün addımlar atılır. Azərbaycan Prezidenti İlham Əliyevin uğurla həyata keçirdiyi dövlət uşaq siyasəti Azərbaycanın milli strategiyasının ayrılmaz tərkib hissəsidir. Onun başlıca prinsipləri uşaqların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır. Son illərdə uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması, pulsuz səhiyyə xidmətinin tətbiqi, uşaq ölümü hallarının kəskin şəkildə azaldılması, uşaqlar arasında tez yayılan xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi istiqamətində ardıcıl işlər görülür. Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləmək və bu sahədə dövlət orqanlarının, müəssisələrin və təşkilatların hüquq və vəzifələrini müəyyən etmək məqsədilə ölkəmizdə qanunlar, dövlət proqramları qəbul edilib.



Uşaqlar cəmiyyətimizin zərif və kövrək nümayəndələridir. Bu gün onların sağlamlığı üçün də ölkəmizdə lazım olan şərait yaradılıb. Uşaqların qidalanmasının müdafiəsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri kimi, uşaqların qidalanması ilə bağlı məqsədli dövlət proqramları hazırlanaraq həyata keçirilib. 2006-2010-cu illəri əhatə edən ”Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı” çərçivəsində əhəmiyyətli islahatlar aparılıb. 2014-cü il 13 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış ”Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı” da gənc nəslin sağlamlığının yüksək səviyyədə qorunmasında əhəmiyyətli rol oynadı. Proqram çərçivəsində respublikamızda ana və uşaqların sağlamlığının qorunması sahəsində tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, doğuşayardım tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, uşaqlara, o cümlədən yenidoğulmuşlara, körpələrə göstərilən tibbi xidmətin keyfiyyət və səmərəliliyi yaxşılaşdırılıb. Zəruri vəzifələrin həyata keçirilməsi davam etdirilir. ”Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında” Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı da uşaqlar üçün nəzərdə tutulan süni qida məhsullarının minimum keyfiyyəti və təhlükəsizliyinə dair tələblər, onların istehsalı, qablaşdırılması, etiketləşdirilməsi, saxlanması kimi tələblərə cavab oldu. Süni qida məhsullarına dövlət nəzarəti təşkil olunub, uşaqların ana südü ilə qidalanmasının müdafiəsi məqsədi ilə analara maddi, hüquqi, tibbi-sosial təminat verilib. Uşaqların sağlam həyat tərzinin təmin edilməsi, sağlamlıqlarının möhkəmləndirilməsi istiqamətində də ciddi addımlar atılır. Bildiyimiz kimi, Ümumdünya Səhiyyə Təşkilatı da uşaqların ana südü ilə qidalanmasına çağırışlar edir. Belə ki, ÜST körpənin altı aylıq yaşına qədər yalnız ana südü ilə qidalanmasını, sonra isə uyğun tamamlayıcı qidalarla birlikdə ən azı iki ilə qədər ana südü verməyə davam etməsini tövsiyə edir. Ana südü yeni doğulmuş körpələr üçün yalnız ən yaxşı qidalanma deyil, həm də xəstəliklərin qarşısını almaq üçün güclü bir vasitədir. Avqustun 1-dən 7-dək dünyanın bütün ölkələrində ”Ümumdünya ana südü ilə qidalanma həftəsi” keçirilir. Məqsəd ana südünün körpələri bir çox xəstəlikdən qoruya biləcəyini geniş ictimaiyyətə izah etməkdir. Bu gələcəyimiz olan uşaqların sağlamlığına yönəlmiş bir addımdır. Ana südü körpə sağlamlığı, körpə ölümlərinin azaldılması, xroniki xəstəliklərin qarşısının alınması üçün ən əhəmiyyətli qidadır. Mütəxəssislərin qənaətinə görə, ana südü ilə bəslənən körpələrdə infeksion xəstəliklərin rast gəlmə tezliyi daha az görülməkdədir. Həmçinin ana südü alan uşaqlarda beynin inkişafı daha yaxşı gedir, allergik xəstəliklər, ishal və tənəffüs yolu xəstəlikləri və hətta irəli yaşlarda ateroskleroz, xərçəng və dağınıq skleroz kimi xəstəliklər daha az müşahidə olunur. Ana südü körpənin hər dövrü üçün olduqca əhəmiyyətlidir. Ana südü asan həzm olunan və infeksiyalardan qoruyucu xüsusiyyətlər ilə seçilən zülallarla zəngindir. Onda olan dəmir, sink kimi mineralların miqdarı, inək südü ilə müqayisədə daha çoxdur.

Sevindirici haldır ki, ölkəmizdə son illər görülən genişmiqyası işlər sırasında ana və uşaqların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlər mühüm yer tutur. Həyata keçirilən tədbirlər dövlətin gələcəyimiz olan uşaqlara qayğısının təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Həkim: ”Böyrək transplantasiyası olunanlar əməliyyatdan 6 ay sonra peyvənd vurdura bilərlər”

***Ölkədə yeni növ koronavirus (COVID-19) infeksiyası ilə əlaqədar olaraq müvafiq məhdudiyyətlərin tətbiq olunması vətəndaşların və dövlətin iqtisadi vəziyyətinə mənfi təsir göstərir. Ona görə də koronavirus əleyhinə vaksin vurduraraq epidemioloji vəziyyətin yaxşılaşmasına dəstək olmaq lazımdır. Virusdan qorunmağın yeganə yolu peyvənd vurdurmaq və kütləvi toplaşmalarda tibbi maskadan istifadə etməkdir.***



AZƏRTAC xəbər verir ki, Səhiyyə Nazirliyinin mütəxəssisi, Azərbaycan Tibb Universitetinin Urologiya kafedrasının doktorantı Araz İbrahimovun dediyinə görə, peyvənd koronavirusa yoluxmaqdan qorumasa da, xəstəliyi yüngül keçirməyə səbəb olur: ”COVID-19-un ”delta” ştamı hazırda geniş yayılıb. Hətta ”yota” variantı barədə də fikirlər səsləndirilir. Yəni, virusun mutasiya nəticəsində müxtəlif variantlarının yarandığını da nəzərə alaraq vaksin vurdurmaq mütləqdir. Çünki yalnız bu halda əhali arasında koronavirusa qarşı kütləvi immunitet formalaşar. Unutmaq olmaz ki, COVID-ə yoluxan hər dörd xəstədən birində ciddi böyrək, ürək və qaraciyər problemi yaranır. Virusdan qorunmaq üçün qaydalara riayət etmək vacibdir”.

A.İbrahimov qeyd edib ki, vaksin vurduranlar koronavirusa yoluxsalar da, xəstəliyi çox yüngül keçirirlər: ”Vaksinasiyadan sonra qolda ağrılar və şişkinlik ola bilər, müəyyən allergik reaksiyalar və bədən temperaturunun yüksəlməsi də normaldır. Həmin əlamətlər bütün vaksinlərdən sonra görünə bilər. Ona görə də vaksinasiyadan qorxmağa heç bir əsas yoxdur”.

Həkim-mütəxəssis, həmçinin uroloji xəstəliklərdən əziyyət çəkənlərin koronavirus əleyhinə vaksinasiyası məsələsinə də aydınlıq gətirib: ”Uroloji xəstəliklərin kəskin dövründə vaksinasiya məsləhət deyil, lakin müalicə müddəti bitdikdən sonra xəstəyə peyvənd vurula bilər. Bundan başqa, qan xəstəliklərindən əziyyət çəkənlərə də vaksinasiya tövsiyə edilmir. Digər uroloji xəstələrin peyvənd olunması isə əksinə daha xeyirlidir. Onu da qeyd edim ki, böyrək transplantasiyası olunanlar əməliyyatdan 6 ay sonra peyvənd vurdura bilərlər”.

# “Vaksinasiyanın effektivliyi əhalinin maksimum peyvənd olunması ilə mümkündür”



“Təəssüf ki, son bir ayda ölkəmizdə COVİD-19 infeksiyasına yeni yoluxma hallarının sayında yenidən artım müşahidə olunmaqdadır. Əlbəttə ki, bunun müxtəlif səbəbləri var v karantin rejimi qaydalarının yumşaldılması şəraitində əksər vətəndaşların yenidən pandemiyasız həyatda olduğu kimi davranmaları da bu səbəblərdən biridir. Lakin dünyada gedən proseslər də göstərir ki, pandemiyanın sona çatmasından danışmaq hələ çox tezdir. Əksinə, mütəmadi olaraq bu və ya digər ölkədə virusun yeni, modifikasiya olunmuş ştamı meydana çıxır ki, bu da infeksiyanın daha sürətlə yayılmasına yol açır. Etiraf etmək lazımdır ki, bu günə COVİD-19 infeksiyası ilə mübarizənin ən effektiv üsulu vaksinasiyadır. Hazırda COVİD-19 peyvəndi insanın immun sistemini virusla qarşılaşdıqda daha güclü mübarizə aparmasını təmin edə biləcək yeganə vasitədir. Lakin bir məqamı da nəzərə almaq lazımdır ki, bu effektivliyi yalnız cəmiyyətin kifayət qədər böyük bir hissəsi peyvənd olunduqda əldə etmək olar. Yalnız bu halda xəstəliyin başqalarına keçməsi halları azalar və çox sayda həyat xilas ola bilər”. Bu sözləri mətbuata verdiyi açıqlamasında Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə Komitəsinin üzvü Kamaləddin Qafarov deyib.

Millət vəkili COVİD-19 peyvəndinin bəzi hallarda təhlükəli ola biləcəyi barədə dolaşan şayiələrə münasibət bildirərək, bu fikirlərin tamamilə yanlış olduğunu xüsusi olaraq vurğulayıb: ”Ümumiyyətlə, peyvəndlər son dərəcədə təhlükəsiz tərkibə malik olan maddələrdir. Əlbəttə ki, peyvənd olunan insanın orqanizminin konkret xüsusiyyətləri fonunda nadir hallarda peyvəndlərin əks təsirləri müşahidə oluna bilər. Lakin bu hal təkcə COVİD-19 peyvəndinə aid deyil. Bu gün apteklərdən minlərlə insanın gündəlik reseptsiz əldə etdiyi və hamı üçün tam təhlükəsiz hesab olunan bir çox ağrıkəsici, hərarətsalıcı və digər dərman preparatlarının da nadir hallarda konkret insanlarda kəskin reaksiyalar yaratma halları olur. Bu halların qarşısını almaq üçün hər kəs peyvənd olmadan öncə hamiləlik, immuniteti zəiflədən xəstəliklər, allergiya və allergik xəstəliklər haqqında mütləq məlumat verməlidir. Peyvənd vurulan hissədə qızartı və temperaturun qalxması kimi hallar isə peyvəndin əks təsirləridir və bu təsirlər sağlamlıq üçün təhlükəli deyil. Ümumilikdə isə məhz peyvəndlər sayəsində milyonlarla insanın ölümünün və əlilliyinin qarşısı alınır. Peyvəndlər xəstəliklərin qarşısını almağa və ya daha yüngül gedişatına şərait yaradır. Əgər biz bir tərəfdən peyvəndlərin verdiyi immunitetin faydalarını və digər tərəfdən də COVİD-19 infeksiyasının mövcud risklərini obyektiv qiymətləndirsək, bu zaman görərik ki, ən qısa müddətdə peyvənd olunmaq bu gün qəbul edə biləcəyimiz yeganə düzgün qərardır. Tibbi maska taxmaq, məsafə saxlamaq və gigiyenik təmizlik qaydalarına riayət etmək xəstəliyin yayılmasının qarşısını almaq üçün çox vacib profilaktik tədbirlərdir. Lakin bütün dünya təcrübəsi göstərir ki, bu tədbirlər xəstəliyin ağır gedişinin və ölüm hallarının cəmiyyətdə yayılmasının qarşısını almaq üçün kifayət deyil”.

Kamaləddin Qafarov bu gün ölkəmizdə vaksin qıtlığının olmamasını, əksinə, əhalinin hətta 4 vaksindən birini seçmək imkanı olmasını dövlətimizin uğurlu siyasətinin daha bir nəticəsi olduğunu qeyd edərək deyib: ”Azərbaycan COVİD-19 pandemiyası ilə mübarizənin ilk günlərindən dünyada daha effektiv nəticələrlə diqqəti cəlb edən qabaqcıl ölkələr sırasında olub. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti pandemiyanın fəsadlarını minimuma endirmək üçün bütün zəruri qabaqlayıcı tədbirləri vaxtında və yüksək effektivliklə həyata keçirib. O cümlədən, möhtərəm dövlət başçımızın böyük uzaqgörənliklə ölkəmiz üçün vaxtında işlənib hazırlanmış vaksinasiya platforması bu gün öz bəhrəsini verir və hazırda dünyada peyvənd preparatlarının süni defisiti yaşandığı halda, ölkəmizdə artıq əhalinin 4 növ vaksin seçimi var.

Onu da qeyd etmək istərdim ki, hazırda vətəndaşların ən çox üstünlük verdikləri Çinin ”Sinovac” şirkəti tərəfindən istehsal edilən ”Coronavac” peyvəndidir. ”Coronavac” illərdir istifadə olunan ənənəvi bir yolla alınır. Əvvəlcə virus çoxaldılır. Sonra isə inaktiv vəziyyətə salınır. Sadə dillə desək, öldürülür. Bu yolla əldə olunan peyvəndləri ənənəvi və yaxud da ölü peyvəndlər adlandırırlar və onlar təxminən 4 həftə ara verməklə 2 dəfə vurulmalıdır. Vaksin olunan orqanizm ölü virus ilə qarşılaşan zaman onu həqiqi təhlükə olaraq qəbul edir və onu tanıyır. Beləliklə də orqanizmdə əks cisimlər yaranır və digər qoruma mexanizmləri aktivləşir. Bütün bunları deməkdə isə məqsədimiz odur ki, bəzi insanlar tamamilə yanlış olaraq peyvənd olunmaqdan deyil, COVİD-19 infeksiyasının növbəti, daha təhlükəli ola biləcək yayılma dalğasından ehtiyat etməlidirlər. Bu təhlükənin qarşısını ala biləcək yeganə vasitə isə məhz peyvənddir.”

# "Hər kəs özünə hörmət etməli və etdiyi əxlaqsızlığın cavabını almalıdır""

***"Əslində, Rusiya Daxili İşlər Nazirliyinin İsfəndiyar Vahabzadə ilə bağlı bu qərarı heç də ona başucalığı gətirmir. Məsələ burasındadır ki, bir Qazaxıstan, bir Azərbaycan vətəndaşına belə bir qadağa qoyulması həm gülməli, həm də ağlamalıdır. Gülməlidir, ona görə ki, bu adamın 66 yaşı var, 50 il sonra onun yaşayacağına hər hansı zəmanət yoxdur.***




Onu Allah bilir. Ağlamalıdır ona görə ki, gör Rusiya kimi böyük dövlət, hegemon bir dövlət nə günə qalıb ki, bir Azərbaycan vətəndaşına belə bir qadağa qoyur. Rusiya bu qədər, yəni bir dövlət kimi özünə hörmət qoyursa, nədən Jirinovskini cəzalandırmır? Adam sağa-sola, hər kəsə ancaq təhqir yağdırır, nifrin tökür. Təbii ki, bunun da cavabı olmalıdır. Azərbaycan XİN-yi nota verəcək, parlament işləsəydi mən əminəm ki, parlament də bunla bağlı cavab verəcəkdi. Ancaq Azərbaycan Jirinovskini qara siyahıya almalıdır. Çünki bu adam Vahabzadədən əvvəl Azərbaycan haqqında fikir bildirib. Özü də təhqiramiz fikirlər bildirib və bunu bir yox, bir neçə dəfə edib. Bu günə qədər də Rusiya tərəfdən Jirinovskiyə qarşı hər hansı cəza müəyyən olunmayıb. Yəni bilirsiz "Ağa Nəzərəm, belə gəzərəm", yanaşması özünə hörmət edən xalqa başucalığı gətirmir. Nə 200-300 il əvvəlki imperiya dövrüdür, nə də ki insanların bilik səviyyəsi o zamanki, insanların bilik səviyyəsidir. Müasir dövr elədir ki, hər kəs özünə hörmət etməli və etdiyi əxlaqsızlığın cavabını almalıdır". Bunları SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.

İsfəndiyar Vahabzadənin cavabı ilə bağlı mən demirəm söyüş səviyyəsində, amma bütün hallarda cavab verməliydi, deyən politoloq: "İndi bu da insandır, hirslənib. Ola bilər söz seçimində bu tip söz seçməyə bilərdi. Amma necə olar ki, mənim xalqıma qoyun deyən birinə həmin adamın ölkəsi heç bir ölçü götürməsin. Onun özünə hər şey demək olardı. Belə bir ifadə işlətmək olardı ki, bu xalqın bir nümayəndəsi də Jirinovskidir. Eyni mənaya gəlir. Amma söz burada birbaşa deyilib. Bu əsəb gərginliklə bağlı olan bir şeydir. Çünki İsfəndiyar Vahabzadə millətçidir, millətini sevəndir. Yetərincə də savadlıdır. Jirinovski ilə müqayisədə kifayət qədər əxlaqlı, tərbiyəli bir insandır. Onun prezidentini, dövlətini, xalqını təhqir edənə cavabını verməli idi. Söz seçimində yenə deyirəm uğursuzluq ola bilər. Amma cavab verilməli idi. O bu missiyanı öz çiyninə götürdü. İndi bizim də, medianın da əsas borcu Vahabzadənin hüquqlarını qorumaqdır", deyib.

Azərbaycan tərəfi də nota ilə kifayətlənməməlidir. Eyni addımı bizim Daxili İşlər Nazirliyi də atmalıdır ki, o Azərbaycana buraxılmasın. Bundan böyük cəza ola bilməz deyən Cümşüd Nuriyev Jirinovskinin beynəlxalq insan haqları məhkəməsinə verilməsi ilə bağlı bunları qeyd edib: "Onu beynəlxalq tribunala söyüşlə bağlı vermək olmaz. Çünki təhqirlə bağlı beynəlxalq hüquqda bir şey yoxdur. Amma diskriminasiya ilə bağlı var. Deməli avropa konvensasiyasının 14-cü maddəsinə əsasən insanlar arasında təfriqə yaratmaq, insanları mənsub olduğu milliyətinə, dininə görə təhqir etmək olmaz. Bu baxımdan onun barəsində məsələ qaldırmaq olar. O təkcə xalqı yox, həm də onun təmsilçisi olan prezidenti təhqir edib, haqqında sarsaq fikirlər deyib. Ən azı iki-üç maddə ilə belə bir işi gündəmə gətirmək olar. Təbii ki, bu uzun çəkəcək. Çünki insan haqları məhkəməsi əsasən bir işə 5-6 il baxır. Amma bu başqaları üçün bir ibrət olar. Məsələn, Rusiya Dövlət Dumasının müavininə, o da bir əxlaqsızlıq etdi. Bunlar o qədər çaşıb ki, Azərbaycanın müstəqilliyini sual altında qoymağa çalışır. Deyib ki, tək Azərbaycan yox, digər postsovet ölkələrinin müstəqilliyi Rusiyanın əlindədir. Rusiya bu haqqı istəsə verər, istəsə verməz. Bu dərəcə də irəli getdi. Çünki Azərbaycan lazımi addımları hələ atmayıb. Bir notadan başqa bir şeylər olmayıb. Cənab Prezidentinin şərəf və ləyaqətinin təhqir olunması ilə bağlı Respulika Prokurorluğu da idda qaldırmalıdır. Prokurorluq olduqca yaxşı işlər görür. Bu addımı da atsa, çox uğurlu bir işi həyata keçirmiş olar".

***Turqay Musayev***

# POLİTOLOQ AÇIQLADI: "Sülhməramlılar Rusiya prezidentinin imzasına hörmət etməlidirlər"



***"Son günlər Ermənistan və Azərbaycan sərhədində, xüsusilə Qarabağ bölgəsində erməni silahlı qüvvələri tərəfindən təxribatlar və atəşkəsin pozulması halları artmaqdadır". Bunu SİA-ya açıqlamasında politoloq Anar Əliyev deyib.***

Onun sözlərinə görə, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarəti altında olan Azərbaycan ərazilərində hələ də mövcudluğunu qoruyub saxlayan Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatlar və müxtəlif silahlar tətbiq etməklə atəşkəsi pozulması ilk növbədə 10 noyabr bəyanatının tələblərinin pozulması deməkdir: "Üçtərəfli bəyanatın dördüncü bəndində qeyd olunur ki, Qarabağ ərazisindən erməni silahlı qüvvələri qeyd şərtsiz çıxarılmalıdır. Təəssüf ki, bəndin məhz bu tələbi hələ də yerinə yetirilmir. Sülhməramlı qüvvələr də bu tələbin yerinə yetirilməsi istiqamətində addımlar atmaqda maraqlı kimi görünmürlər. Qeyd edim ki, Ermənistan tərəfi Azərbaycanla danışıqlara hazır olduğunu bəyan edib. Paralel olaraq atəşkəsi pozmaqla təxribatlar törətməkdə davam edir. Bu, onu göstərir ki, Ermənistan yenə də siyasi riyakarlıqla məşğuldur, siyasi ikiüzlülük nümayiş etdirməkdədir. Üzdə beynəlxalq ictimaiyyətin diqqətinə danışıqlara hazır olduqlarını göstərir, arxada isə Azərbaycan mövqelərinə atəş açaraq və müxtəlif xarakterli təxribatlar törətməklə danışıqlara hazırolma bəyanatının yalnız sözdən ibarət olduğunu göstərir. Bütün bunlar 10 noyabr və ərazilərdə erməni silahlı dəstələrinin tərkisilah edilməsi təmin edilməli və onların yeni hərbi məntəqələr, postlar yaratasının qarşısı alınmalıdır. Rusiya sülhməramlı qüvvələri Laçın dəhlizi vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinə daxil olmağa çalışan müxtəlif tipli yüklərə



11 yanvar bəyanatlarının qarantı rolunda çıxış edən Rusiya tərəfinin proseslərə məsuliyyətsiz yanaşmasını və bəzi hallarda lokal münaqişə ocaqlarının yaranmasında maraqlı olduğunu göstərir. Hesab edirəm ki, Rusiya sülhməramlı qüvvələri məsuliyyətlərini daha dərtindən dərk etməli və sülhməramlı missiyasından irəli gələn vəzifələrin yerinə yetirilməsinə daha ciddi yanaşmalıdırlar. Qarabağ ərazisində Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altında nəzarəti daha ciddi şəkildə artırmalıdır. Bu dəhliz vasitəsilə Azərbaycanın Qarabağ ərazisinə daxil olan insanlar da ciddi şəkildə nəzarətə götürülməlidir. Bura yalnız Qarabağ ermənilərinin daxil olmasına imkan verilməlidir. Ermənistan vətəndaşı xarici ölkə vətəndaşı kimi qəbul edilməlidir və qəti şəkildə Qarabağ bölgəsinə daxil olmaqlarına icazə verilməməlidir. Bu, sülhməramlıların məsuliyyətidir və məsuliyyətlərini dərindən dərk etməli, Azərbaycan dövləti qarşısında götürdükləri öhdəlikləri düzgün yerinə yetirməyə çalışmalıdırlar. Əks halda, Azərbaycan tərəfi bitərəfli qaydada sülhməralıların öz missiyasını dərk etmədiyini və ya bilərəkdən öz vəzifələrini yerinə yetirmədikliərini bəyan edərək sülhməramlıların Azərbaycan ərazisini tərk etməsini tələb edə bilər. Bu Azərbaycan dövlətinin müstəsna hüququdur. Heç bir beynəlxalq qanunlar və konvensiyalar tərəfindən məhdudlaşdırıla bilməz.

Lakin hesab edirəm ki, münasibətlər o həddə gəlib çatmayacaq. Çünki Rusiya siyasi hakimiyyəti və lideri regionda və bölgədə sülhün əldə olunmasında, iqtisadi münasibətlərin bərpasında maraqlıdır.

Fikrimcə, bu təxribatların arxasında Ermənistan və Ermənistanın qərb havadarları və Rusiyanın müəyyən dairələri dayanır. 10 noyabr və 11 yanvar bəyanatlarında Rusiya prezidentinin imzasına hörmət etməli olan sülhməramlılar fəaliyyətlərində bu amili nəzərə almalıdırlar. Hesab edirəm ki, bu proseslərin gərginləşməsində Rusiya siyasi komandası maraqlı deyil".

***Qönçə Quliyeva***

# "Ermənistan bir daha müharibəni qızışdırsa..." - HƏRBİ EKSPERTDƏN SƏRT REAKSİYA

***"Dünya ölkələri, beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın ərazi bütövlüyü tanınsa da, Azərbaycan 44 günlük müharibədə qələbə qazansa da, Azərbaycan ərazilərin müəyyən hissəsini düşmənlərdən təmizləyib və birgə bəyannaməni qəbul etsə də, amma bu gün Ermənistan təxribatlarından əl çəkmək istəmir". Bu sözləri SİA-ya açıqlamasında hərbi eskpert Cəlil Xəlilov deyib.***



Onun sözlrinə görə, Ermənistan tərəfi yenə də beynəlxalq təşkilatları aldatmağa, provakasiyalara əl atır: "Qarabağda süni gərginlik yaratmaqla bir daha delimitasiya məsələlərini dayandırmaq istəyir. Sülh sazişini imzalamaqdan imtina etmək istəyir. Çalışır ki, yenidən müharibə qızışsın və Azərbaycan Ermənistana müqavimət göstərməyə məcbur olsun. Bu da Ermənistan üçün ağır nəticələrə gətirib çıxara bilər. Ona görə də Ermənistan tərəfi bu gün bu məqsədlərdən əl çəkməlidirlər".

Cəlil Xəlilov sözlərinə davam edərək həmçinin qeyd edib ki, beynəlxalq təşkilatlar ermənilər və onların havadarlarına təzyiq göstərməlidirlər: "Bu gün Ermənistanın hərbi-siyasi rəhbərliyi müəyyən qədər razılaşmaq istəsə də, onları bu məsələyə təhrik edən müəyyən xarici qüvvələr də var. O cümlədən onlara dəstək verən, Ermənistan ordusunun müharibə dövründə itirdiyi texnikaları əvəzləmək üçün, əlavə texniki imkanlar yaratmaq üçün oraya silah-sursat daşıyan dövlətlər var. Ermənistan bir daha müharibəni qızışdırsa və yaxud da müharibəyə getsə, bu səfər Ermənistan üçün məhv olma zəruriyyəti yaranacaqdır".

***Arzu Qurbanzadə***

# Kəramət "kəramətli" şəkildə söyüb, Arif isə "arifcəsinə" bəyənib!

### Radikal müxalifətin dar çərçivəli kibermüharibəsi davam edir

Radikal müxalifət daxilində qarşılıqlı ittihamların irəli sürülməsi, xəyanətkarlıq iddialarının səslənməsi və s. bu kimi hallar adi, hətta belə desək, ənənəvi hal alıb. Lakin o da sirr deyil ki, bu savaşlar həm də sosial şəbəkələrdə də davam etdirilməkdədir. Misal üçün, Müsavat partiyası ilə AXCP tərəfdarları arasındakı uzun illərə söykənən hərc-mərcliklləri buna sübut kimi göstərə bilərik. Müsavatçıların AXCP sədri Əli Kərimlinin "dirijor çubuğu" ilə idarə etdiyi "Milli Şura"nı da hədəfə almaları, əllərinə düşən hər bir imkanda ölü qurumda yer alan adamları kökündən "baltalamaları" halları kifayət qədər baş verib.

### Kəramət Böyükçöl tərəfindən Gültəkin Hacıbəyli haqqında yazılan təhqir statusunu Arif Hacılı bəyənib!

Həmin hallardan biri də Arif Hacılı tərəfindən yaşanılıb. Əldə etdiyimiz məlumata görə, müsavatçıların başqanının bir facebook statusuna münasibəti müxalifət düşərgəsində birmənalı qarşılanmayıb.





TƏRS BAXIŞ-FOTOFAKT

Söhbət Əli Kərimlinin yaxınlarından hesab olunan və "Milli Şura"nın koodinasiya mərkəzində yer alan Gültəkin Hacıbəylinin Kəramət Böyükçöl tərəfindən küçə sözləri ilə təhqir olunan yazısından gedir.

Daha dəqiq desək, Kəramət Böyükçöl onun müsahibə təklifini rədd edən Gültəkin Hacıbəyli haqqında təhqiramiz ifadələrini facebook səhifəsində yerləşdirib. Nəticədə bu olay sosial şəbəkələrdəki müxalifətçi trollar arasında geniş müzakirəyə səbəb olub. Həmin müzakirələrdə isə nə qədər maraqlı görünsə də təhqir və söyüşlər qınanılıb.

Çox maraqlıdır ki, daim söyüş dağarcıqları vəzifələrini icra edən trollar bu dəfə təhqirin yolverilməz olduğunu yazıblar. Görünür, şeflər, baş trolları Əli Kərimli onlara hələlik bu məcrada qalmağa əmr edib.

Amma buna baxmayaraq, məsələnin ən maraqlı cəhəti də budur ki, Kəramət Böyükçöl tərəfindən Gültəkin Hacıbəyli haqqında yazılan təhqir statusunu Arif Hacılı bəyənib!

Görəsən, Arif Hacılının belə bir addım atması nə ilə əlaqədardır? Bəlkə, Arif Hacılı bu yolla AXCP-yə, Əli Kərimliyə eyham vurub ki, əlinə düşən növbəti imkanında onun haqqında da yazılan hər hansı bir söyüşlü rəylərə bəyənmələr atacaq? Əslində burda təəccüblü heç nə yoxdur. Harada Əli Kərimli, Arif Hacılı və onların əlaltıları varsa, orada söyüşlər də də olacaq. Necə deyərlər, radikal müxalifətin dar çərçivəli kibermüeharibəsi davam edir.

**Rövşən RƏSULOV**

# ... Buna Vahan yazıq, neyləsin?

***Bu ilin əvvəlində Ermənistanın iqtisadiyyat naziri əvəzi Vahan Kerobyan altı ay, yəni yanvar-iyun ayları ərzində İranla ticarət dövriyyəsini 2,5 dəfə artıracaqlarını bildirmişdi. Amma türklər demiş, nə yazıq ki, artıra bilmədi. Bildirək ki, hələ kecən il iki ölkə aralarındakı ticarət dövriyyəsini 400 milyon dollardan 1 milyard dollara çatdırmağı tərəflər bir növ "öhdəlik kimi" götürmüşdülər. Amma nə qədər dartsalar da, bu da alınmadı.***



Məsələ bundadır ki, həmişə boyundan yuxarı tullanmağa adətkar olan biznesmen Vahan Kerobyanın İranla ticarəti 1 milyarda çatdıracağı barədə dedikləri, elə həmin vaxt bəzi erməni iqtisadçılarında bunun reallaşa biləcəyinə şübhələr doğurmuşdu. Onlar altı ay ərzində İranla ticarətin ikiqat artırılması üçün heç bir şərtin, heç bir əsasın olmadığını iddia edirdilər.

Amma maraqlıdır ki, İranın iqtisadiyyat naziri Fərhad Dejpasand də bir növ Vahana qəyyum çıxaraq 2021-ci ilin yanvar ayında oxşar bir bəyanat səsləndirmişdi.

İndi də Vahan deyir ki, biz İranla 1 milyardlıq ticarət dövriyyəsinə Yeqvarddakı "Armoil" zavodunun işə salınmasındn sonra nail olacağıq. Xatırladaq ki, ermənilərin "Armoil" zavodunda bitum və sürtkü yağlarının istehsalı planlaşdırılır. Yəni zavodda əsasən İrandan gətirilən mazutun distillə edilməsi nəzərdə tutulur. Bu isə ətraf mühitə xeyli ziyan vurur deyə, ermənilər də buna narazılıq edirlər.

Bundan əlavə, tərəflərin 1 milyardlıq ticarət səviyyəsinə çatmamalarına başqa səbəb isə, iki ölkə arasındakı yük daşımaları əlaqəsində olan maneələrdir ki, guya hələ də aradan qaldırılmayıb.

Bir tərəfdən, (yenə də guya) İran, erməni yük maşınlarının İrana girməsinə icazə vermir: sərhəddə malları İran maşınlarına yüklətdirir. Digər tərəfdən, iranlı yük maşını sürücüləri Ermənistan ərazisindən keçmək üçün çoxlu pul ödəyirlər. (...yenə də erməni nəfsi).

Onu da qeyd edək ki, hazırda İrandan Ermənistana daha çox maye qaz və neft məhsulları, polimerlər, sement, armatur və digər tikinti materialları, həmçinin tərəvəz və meyvələr gətirilir. Ermənistan isə İrana az miqdarda elektrik enerjisi və ("əla növ, yağlı") qoyun əti verir.

...Yaxşı, indi tərəflərin bu qədər mal verib mal almalarına baxmayaraq, ticarət dövriyyəsini hələ də 1 milyarda çatdıra bilmirlərsə, buna Vahan yazıq neyləsin? Hıy?

**Ağasəf Babayev**



RÖVŞƏN

rovsen.rasulov@mail.ru

## Növbəti dəfə başlarından basmaq, yenə də diz çökdürmək lazımdır!

***Artıq məlumdur, ermənilər silahlarını yerə qoymağı düşünmürlər. Bu, bilavasitə oyun qaydalarının köklü şəkildə pozulmasıdır. Oyunun qaydalarını Rusiya SM-rı da pozurlar.***

Baxmayaraq ki, üçtərəfli bəyanatda SM-lar tərəfindən silahlarını yerə qoymaqdan vaz keçən erməniləri, əsasən, Ermənistan silahlı qüvvələrinin çıxarılmayan hissələrinin güc yolu ilə tərksilah etmələri ilə bağlı ayrıca bənd yoxdur, bütün bunların müqabilində silahlı ermənilər düz Rusiya SM-nın gözləri qarşısında dayanmaqdadırlar. Kremldən isə İrəvana "özünə yığış" tipli heç bir siqnal verilmir. Bundan əlavə, erməni güclərinin Laçın dəhlizi vasitəsi ilə Qarabağa sızmalarına da ruslar nədənsə (?!) etinasız yanaşırlar, hətta nəzakətlə qarşılayıb "xoşgəldin" də deyirlər...

Bütün bunların müqabilində həm İrəvana, həm də Moskvaya bir çox sualların verilməsnin tam zamanıdır. Təbii ki, Bakı üzərinə düşən bütün bəndlərə əməl etməsi ilə yanaşı, həm də qalib tərəfdir. Bu baxımdan, Azərbaycan məhz 4-cü bəndə əsasən, əməli fəaliyyətə keçməklə bütün silahlı insanları saxlaya, onlara qarşı diversant, terrorçu ittihamını irəli sürməklə hüquqi və güc addımlarını ata bilər. Yeri gəlmişkən, Bakı bu addımlarını hələ ötən ilin dekabrında atdı. Yəqin ki, Hadrutda baş vermiş olayları unutmamısınız. Düzdür, ermənilər bundan sonra terrorçu-diversantları dünyaya "hərbi əsir" kimi təqdim etməyə cəhdlər göstərsələr də, onların bu hay-şivənləri özlərinə qaldı. Bakıda keçirilən məhkəmələr və çıxarılan qərarlar da buna sübutdur.

İndi də eyni hal demək olar ki, müşahidə edilməkdədir. Ermənistan üçtərəfli bəyanatın bəndlərini pozur. Təsəvvürünüzə gətirin, Azərbaycan ərazi bütövlüyünü təmin etmək və terror-diversiya cəhdlərinin qarşısını almaq üçün tam hüququndan istifadə etməklə Laçın dəhlizini bağlaya bilər. Siz bundan sonra Ermənistanın hay-həşirlərinə baxın!

Halbuki, bu, həmin Ermənistandır ki, üçtərəfli razılaşmanın 9-cu bəndinə qarşı da çıxaraq Naxçıvana olan nəqliyyat dəhlizinin, yaxud rabitəsinin açılmasına qarşı çıxır, üstəlik, kapitulyant olduğunu unudaraq həyasız şərtlərlə çıxış edir.

Ancaq gəlin bir daha reallıq tərəfindən hadisələrin nəticələrinin haraya doğru gedəcəyini proqnozlaşdıraq. Əgər kapitulyant dövlət məğlub olduğunu etiraf edirsə və hər hansı razılaşmalara imza atırsa, sonradan öz sözünə əməl etmirsə, həmin dövlət haqqında başqalarının necə düşündüyünü özünüz düşünün. Lap insanlıq halında olduğu kimi...

İndi İrəvanda elə düşünürlər ki, onların da "liderləri" var və bu "lider" ölkəni vəziyyətdən çıxaracaq və s. Fəqət onlar xam xəyallardadırlar, öz utopik və daşnak xarakterli xəyallarında qalıblar. Ona görə də tələb olunanlara riayət etmirlərsə, demək, riayət etmələri üçün növbəti dəfə başlarından basmaq, yenə də diz çökdürmək lazımdır!

# "Nar" "Zirə" Peşəkar Futbol Klubunun tərəfdaşı olacaq

Gənclərə və idmana aid layihələr icra edən "Nar" və "Zirə" Peşəkar Futbol Klubu arasında sponsorluq və əməkdaşlığa dair müqavilə imzalanıb. Artıq komandanın formasında, ev oyunlarının keçirildiyi meydançanın kənarında "Nar" loqosunu görmək mümkün olacaq. Əsas məqsəd "Zirə" PFK-ya dəstək olmaq, futbolun kütləviliyini artırmaq və gənclər sağlam həyata yönləndirməkdir.

Qeyd edək ki, "Zirə" Peşəkar Futbol Klubu 2014-cü ildə təsis edilib. "Qartallar" 1 dəfə Azərbaycan Premyer Liqasının gümüş medallarına sahib olub, 1 dəfə isə ölkəmizi UEFA Avropa Liqasında təmsil edib. Komanda elə ilk cəhddə avrokuboklarda mərhələ adlamağa nail olub.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 91%-ni əhatə edir və 8780-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.



***COVİD-19 virusunun yayılma sürətinin yenidən artması və yoluxanların kəskin çoxalması həm əhalini, həm də hökuməti təşvişə salıb. Bunu dayandırmaq üçün bəzi sərt tədbirlərin görüləcəyi haqda söhbətlər gəzir. Cəmi 2 ay qabaq ikirəqəmli olan yoluxma sayı artıq dördrəqəmli həddə çatıb. Avqustun 12-də respublika üzrə yoluxma sayı 2674 nəfərə, ölüm halı 14 nəfər çatıb. Ümumilikdə, indiyədək ölkəmizdə yoluxanların rəsmi sayı 360 mini, ölənlərin sayı isə 5 mini keçib. Bir gündə 16 575 test edilib 2674 nəfərdə yoluxma aşkarlanıbsa, təhlükəni artıq ciddi hala gəlmiş saymaq olar. Təxminən hər 5 testdən 1-də yoluxma aşkarlanıb. Testdən keçməyən, yoluxan, amma simtomları güclü olmadığından qeydiyyata düşməyən, özü təbii yollarla müalicə etməyə çalışan şəxsləri də nəzərə alsaq, real rəqəmin daha çox olduğunu görə bilərik. Bəs belə böyük artımın səbəbi nədədir, qarşısını almaq üçün daha hansı tədbirlərin görülməsinə ehtiyac var?***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Koronavirus cəbhəsində ümummili mübarizə: necə gedir, necə olmalıdır?




### COVİD-lə mübarizə yetərlidirmi?

Koronavirusla mübarizədə ən yaxşı təcrübəsi olan ölkələrdən biri də Azərbaycandır. Xüsusən də, yoluxanlar arasında ölüm hallarının faizinə görə biz ən yaxşı mövqelərdən birindəyik. Bu, əlbəttə, ölkədə aparılan effektiv tədbirlərin nəticəsidir. Əksər ölkələrdən fərqli olaraq, COVİD xəstələrinin bütün müalicəsi, ən bahalı dərmanlardan tutmuş bütün ehtiyacları dövlət tərəfindən ödənilir. Üstəlik, həkimlərimiz də insanlarımızı xilas etmək üçün bu virusa qarşı qəhramancasına mübarizə apardılar.



Lakin bəzi tədbirlər effekt vermədi, məsələn, şənbə-bazar günləri ictimai nəqliyyatın işləməməsi heçş bir müsbət dəyişikliyə səbəb olmadı. Açıq havada maska taxmaq tələbi çox keçməmiş əsassız və faydasız olduğu ortaya çıxdı və ləğv olundu. Bununla belə, demək lazımdır ki, həyata keçirilən tədbirləri ümumən qənaətbəxş saymaq olar. Sərt karantin dövründə qapanmalar olmasaydı, problemin miqyası bəlkə dəfələrlə böyük olacaqdı. Dövlət həmin aylarda yüz minlərlə vətəndaşa sosial yardım ödəməklə vəziyyəti idarə etməyə çalışdı.

Son 1 ildə həyata keçirilən tədbirlər müəyyən nəticələr də vermişdi. Bu ilin əvvəlindən etibarən yayılma lokallaşdırılmış, gündəlik yoluxma sayı ikirəqəmli ədədə endirilmişdi. İlin ortasına artıq vəziyyət çox yaxşı idi- yayılma demək olar ki dayanmış, yoluxanların kütləvi şəkildə müalicə olunub evə buraxılması davam edirdi. Lakin...

təhlükə hələ keçməyibmiş.




Hökumətimiz vətəndaşların qaydalara riayət edəcəyini düşünüb karantin tədbirlərini xeyli yüngülləşdirdi. Az saylı qonağın iştirakı ilə, qorunma tədbirlərinə riayət etməklə toylara da icazə verildi. Bundan sonra yoluxmalar artmağa başladı. Çünki toylarda qonaq sayı qoyulmuş limiti aşdı, qapalı şəraitdə sıxlıq oldu, demək olar ki, qorunma tədbirlərinə diqqət edilmədi.

Digər qapalı məkanlarda müxtəlif tədbirlər də eyni vəziyyət yarandı. Virus da məlum olduğu kimi, əsasən, qapalı məkanlarda yaxın məsafədə insanlar toplaşanda yayılır. Ona görə də, pandemiya başa çatanadək yoluxma təhlükəsi aktual olduğundan qapalı yerlərdə kütləvi yığıncaqlar qadağası qalmalıdır. Lakin açıq havada toy və digər mərasimləri keçirmək olar. Məsafə şərtinə əməl etməklə.

İnsanları zorla vaksin vurdurmağa məcbur etməkdənsə, belə tədbirlər daha çox effekt verir. Çünki bunlara əməl edilməsə, vaksin də faydalı olmayacaq, bəzi dünya ölkələrində 2 dəfə vaksin vurulanların da yoluxma sayı xeyli artıb. Demək, əsas gücü qorunma tədbirlərinə verməliyik. Ən əsası insanların immuniteti gücləndirilməlidir. Bunu televiziyalarda həkimlər fasiləsiz olaraq təbliğ etməlidir ki, hansı yollarla immun sistemini gücləndirmək olar. Burada qeyd edim ki, bu yay mövsümündə insanların rahat şəkildə təbiət qoynuna, dənizə, gölə, çaya getmələri immunitetlərini xeyli gücləndirib və belə şəxslər yoluxsa belə, xəstəliyi yüngül keçirəcək. D vitamini səviyyəsi normada olan insanların virusu çox yüngül keçirdiyi bəzi ölkələrdə təsdiq olunub.



### Hökumət bu şəraitdə mümkün olan hər şeyə icazə verib

Pandemiya çox uzandığından insanlar çox narahatdır. Bu bəla bütün dünyanı təhdid edir, əksər ölkələrdə daha pis vəziyyətdir. Azərbaycanda vəziyyət ölkələrin çoxundan daha yaxşıdır. Bir qədər səbrli olmaq lazımdır. Bu virusun kökü kəsilməsə və ehtiyatlı davranılmasa yenidən alovlana bilər. Bunu artıq təcrübədə görmüşük. Ona görə də, mümkün qədər qorunma tədbirlərinə əməl edilməlidir. Lakin görürük ki, insanlar daha əvvəlki qədər ciddi yanaşmırlar, əllərini tez tez spirtlə silmir, maskanı taxmaq istəmirlər, bir-birinə çox yaxın dayanırlar və əllə çox görüşürlər, hətta, dostlar, rəfiqələr hər görüşəndə öpüşürlər. Virus isə 90 faiz hallarda əllə görüşməkdən, öpüşməkdən yaranır.

Nəticədə son günlərdə yoluxmaların sayı artıb. Burada əsas günah biz vətəndaşların üzərinə düşür. Çünki bu virusu bir-birimizə biz yayırıq. Dövlət mümkün olan hər şeyi edir, lakin daha sərt tədirlərə keçmək istəmir, çünki bu, insanlara həm sosial, həm psixoloji cəhətdən pis təsir edir, üstəlik, dövlətə də çox böyük iqtisadi zərərə başa gəlir. Ona görə də, gəlin biz əlimizdən gələni edək ki, yoluxmanın artmasına imkan verməyək.

Toyu 50 nəfərlə keçirəndə də ailə qurmaq və xoşbəxt olmaq olur. 500 nəfərlə keçirəndə xoşbəxtliyə təminat vermir. Bu həqiqəti başa düşsək vəziyyətdən çıxa biləcəyik.

Karantin gücləndsə, işsiz qalanlara kim yardım etməlidir?

İndiki şəraitdə isə, dövlət karantin tədbirlərini sərtləşdirməyə məcburdur. Əlbəttə, bəzi qapalı məkanların bağlanması, qapalı yığıncaqlara qadağanın bərpası bəzi vətəndaşları işsiz qoya bilər və onların maddi vəziyyəti çətinləşəcək. Belə vətəndaşlara dövlət və xeyriyyə cəmiyyətləri tərəfindən yardımlar edilməlidir. Bu, müvəqqəti çətinlikdir. Bir neçə ay çətinlik çəkməyimiz bu bəlanın bütün əhaliyə yoluxmasından daha az zərərlidir.

Sərt karantin tətbiq olunsa, ərazi icra orqanları və bələdiyyələr heç kimin işləmədiyi və heç bir mənbədən gəliri olmayan ailələri müəyyənləşdirməli və onlara siyahı üzrə heç olmasa minimum ehtiyac meyarı həddində kömək edilməsini təşkil etməlidir.

İmkanlı vətəndaşlarımız, xeyriyyə təşkilatları və fondları, həmçinin böyük şirkətlər bu yardım kampaniyasını davam etdirməlidir. Bu halda həmin kateqoriyadan olan vətəndaşlarımız bu böhranı sosial fəlakətə düçar olmadan ötüşdürə bilərlər.

Dövlət və cəmiyyət olaraq birləşib, köməkləşib bu vəziyyətdən çıxmalıyıq. Bunun üçün imkanlarımız hələ də var, hələ heç nə itirilməyib. Əsl mübarizə qarşıdadır. Ümidvarıq ki, bunu bacaracağıq. Dövlətlə xalq birləşəndə hər şeyə qadir olur. Bunu Çinin timsalında gördük, bizdə də belə birlik var və demək, biz də bacaracağıq.

***Elçin Bayramlı***

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

Son səhifə

14 avqust

# Fizioterapevt: Son dövrlər bel yırtığından əziyyət çəkənlərin sayı artıb



***Bel ağrılarının əsas səbəblərindən biri bel yırtığı xəstəliyidir. Təəssüf ki, son dövrlər bel yırtığından əziyyət çəkənlərin sayı artıb. Bel yırtığı xəstəliyinin bir neçə mərhələsi müşahidə edilir. İlk olaraq fəqərələrarası diskdə qabarma, sonra protruziya, daha sonra disk yırtığı əmələ gəlir. Dördüncü mərhələdə isə sekvestrə olunmuş yırtıq prosesi başlayır.***

AZƏRTAC xəbər verir ki, həkim-fizioterapevt Gülnar Əhmədli bel yırtığı xəstəliyi barədə məlumat verib.

G.Əhmədlinin dediyinə görə, fəqərələrarası diskin ortasında nüvə, ətrafında isə fibroz halqa yerləşir: "Protruziya deyilən mərhələdə fəqərələrarası diskin mərkəzində yerləşmiş nüvə öz tamlığını itirərək xarici qişaya basqı edir, nəticədə ətrafdan keçən sinirləri sıxır. Sonrakı mərhələdə isə fəqərələrarası diskin xarici qişasını dələrək xaricə çıxır və yandan ayaqlara doğru gedən oturaq sinirini sıxır. Bu zaman xəstələrdə bel ağrısı ilə yanaşı, çanaq və ayaq ağrıları da baş qaldırır. Fəqərələrarası diskin hansı nahiyədə yerləşməsindən asılı olaraq ağrılar da fərqli yerlərdə hiss edilə bilər. Fərqli nahiyələrdə - budun ön, yan və arxa səthlərində yırtığın yerləşmə yerinə müvafiq olaraq ağrılar baş verə bilər".

Xəstəliyin simptomları barədə məlumat verən həkim-fizioterapevt deyib: "Tək və ya hər iki aşağı ətrafa yayılan ağrılar, bud və baldır əzələlərində olan ağrı, ayaqlarda uyuşma, keylik, yandırma, göynəmə, soyuma hissiyyatı, hərəkət məhdudluğu, baldır əzələlərində qıcolma, antalgik pozisiya (ağrı ilə əlaqədar beldə əyrilik), yeriyən və oturan zaman ağrıların olması bel yırtığının əlamətləridir. Bel yırtığının pəncədə iflic, tez yorulma, sidik saxlaya bilməmək, yeriyə bilməmək kimi ağırlaşmaları da meydana çıxa bilər".

G.Əhmədli, həmçinin bel yırtığının müalicəsində istifadə edilən fizioterapiya metodlarından danışıb: "Qabarma, protruziya və yırtıq mərhələsində fizioterapiya müalicəsi təyin edilir. Fizioterapiya müalicəsində yüksək intensivli lazer, ultrasəs terapiyası və müxtəlif cərəyan növlərindən istifadə edilir. Yeni metod olan tekar terapiyası da disk yırtıqlarının müalicəsində əvəzedilməz fizioterapiya üsulu sayılır. Tekar terapiya reabilitasiya və fizioterapiya sahəsində innovasion metoddur, orqanizmin hüceyrə regenerasiyasını həyata keçirmək üçün istifadə edilir. Həmin terapiya üsulu yüksək tezlikli elektrik cərəyanının orqanizmə müalicəvi təsirinə əsaslanır. Orqanizmə elektromaqnit dalğalar şəklində daxil olaraq terapevtik təsir göstərir. Bu metod dərin termoterapiya üsuludur".

# Messi ilə Ronaldo eyni komandada!



***Lionel Messini heyətinə qatan PSJ-nin növbəti hədəfi Kristiano Ronaldodur. SİA.az xarici mətbuata istinadən xəbər verir ki, bu barədə AS nəşri məlumat yayıb.***

Paris təmsilçisinin aparıcı oyunçularından olan Kilian Mbappenin klubla müqaviləsi gələn ilin yayında başa çatır. Fransa millisinin üzvü PSJ ilə sözləşməsi bitdikdən sonra azad agent statusu ilə Madrid "Real"ına keçəcək. Fransa klubunun prezidenti Nasser Əl-Xəlaifi Mbappenin klubdan ayrılacağını bilir. Buna görə də o, 2022-ci ilin yayında "Yuventus"la müqaviləsi başa çatacaq Kristiano Ronaldonu PSJ-yə gətirəcək.

# Melotonin hormonunun qanda miqdarını artırmaq üçün ən düzgün yol yuxu rejiminə əməl etməkdir



***Melotonin orqanizmdə mövcud olan vacib hormonlardan biri və yuxuya getmənin səbəbidir. Həmin hormon düzgün ifraz olunmadıqda yuxusuzluq, depressiya, metabolik xəstəliklər yaranır, ömür qısalır. Melotonun hormonu gecə saat 11-dən səhər saat 5-ə qədər ifraz olunur.***

Bakıdakı 6 nömrəli poliklinikanın terapiya şöbəsinin müdiri Gülsarə Sadıqova AZƏRTAC-a deyib: "Yuxusuzluqdan əziyyət çəkənlər, davamlı depressiyada olanlar, stresli həyat sürənlər, çox kofeinli içkilərdən istifadə edənlər və siqaret çəkənlərdə melotonin hormonunun miqdarı az olur. Onun qanda miqdarını artırmaq üçün ən düzgün yol yuxu rejimini bərpa etməkdir. Bunun üçün saat 23-dən əvvəl qaranlıq otağa keçmək və hər gün eyni vaxtda yuxunu tənzimləmək lazımdır, çünki melotonin hormonu fizioloji olaraq həmin vaxt ifraz olunur".

Psixoloqlar isə melotoninin "xoşbəxtlik hormonu" adlandırılan serotoninlə birbaşa əlaqəsi olduğunu bildirirlər, çünki mütəmadi olaraq yuxusuz qalanların enerjisi tükənir və belə olan halda onlar depressiyaya düşürlər. Həkim-terapevt deyib: "Melotonin hormonu vaxtında ifraz olunanda yuxuya gedənlər sağlam olurlar. Ona görə yatmazdan 40-45 dəqiqə əvvəl elektronikadan - televizor, kompüter və telefondan uzaq olmaq lazımdır. Onu kitab oxumaq və hər hansı məşğuliyyətlə əvəz etmək olar. Yaxud yatmazdan əvvəl açıq havada gəzintiyə çıxmaq məsləhətdir".

Melotonin ifrazı insan yaşlandıqca azalır. Ona görə də bəzən bu çatışmazlığı dərmanlarla aradan qaldırmaq məcburiyyəti yaranır.

Bəzi ölkələrdə tərkibində həmin maddə olan dərmanlar qida əlavəsi sayılır və həkim resepti əsasında satılır. Bütün hallarda melotonini süni yollarla artırmaq üçün mütləq həkim məsləhəti alınmalıdır.

# Əmisi oğlunu qəsdən öldürməyə cəhd edən şəxslə bağlı cinayət işi məhkəməyə göndərilib



İmişli rayon sakini İsa Vəliyevin qəsdən öldürülməsinə cəhd edilməsi faktı ilə bağlı cari il fevralın 25-də Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işinin ibtidai istintaqı tamamlanıb.

İmişli Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, istintaqla həmin gün zərərçəkmişin əmisi oğlu Ceyhun Vəliyevin rayonun Aranlı kəndi ərazisində yerləşən ərzaq mağazasının qarşısında şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə ilə əlaqədar İsa Vəliyevi döyərək ona qarşı qərəzli xuliqanlıq hərəkətləri etdiyi, daha sonra kəndin örüş otlaq sahəsində "Toyota Land Cruiser" markalı avtomobilini onun üzərinə sürərək qəsdən öldürməyə cəhd göstərdiyi müəyyən olunub.

İş üzrə toplanmış kifayət qədər sübutlar əsasında Ceyhun Vəliyevə Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) və 221.1-ci (xuliqanlıq) maddələri ilə ittiham elan edilib və barəsində həbs qətimkan tədbiri seçilib. Hazırda cinayət işi baxılması üçün Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600